# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

27 dekabr 2025-ci il, şənbə
№ 238 (7065)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# 2000-dən çox medal...

## İlham Əliyev: Bizim 5 il bundan əvvəl əldə etdiyimiz şanlı Qələbə idmançıların məsuliyyətini də böyük dərəcədə artırır. Çünki onlar müzəffər xalqın nümayəndələri kimi yarışlarda iştirak edirlər




Bax səh. 2

## Bölgənin nəbzi Bakı vaxtı ilə vurur!

Bax səh. 3

## Azərbaycan ədaləti bərpa etdi

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ağır və ədalətsiz bir sınaqlarla üz-üzə qaldı. Ermənistanın açıq işğalçılıq və təcavüzkar siyasəti nəticəsində ölkəmizin əraziləri zəbt olundu, yüz minlərlə azərbaycanlı doğma yurd-yuvasından didərgin salındı. Bu proses təkcə regional münaqişə deyildi, eyni zamanda beynəlxalq hüququn və ədalətin sınağı idi. Azərbaycan beynəlxalq aləmdən sadəcə bir şey tələb edirdi: mövcud hüquqi mexanizmlərin işləməsi və ədalətin bərpa olunması. Lakin "beynəlxalq ictimaiyyət" adlanan strukturlar bu məsələdə prinsipial mövqe ortaya qoymadı, əksinə, ikili standartlar nümayiş etdirdi...

Bax səh. 3

## Azərbaycan-Çin: uzunmüddətli inkişaf hədəfləri



Bax səh. 4

## Millət vəkilləri 9 qanun layihəsini qəbul ediblər

Dekabrın 26-da Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 9 məsələ daxil edilib.

Əvvəlcə əmək qanunvericiliyinə nəzərdə tutulan dəyişikliklər üçüncü oxunuşda müzakirə olunub. Bildirilib ki, layihə 18 qanun üzrə 178 maddədə 457 dəyişikliyi ehtiva edir. Dəyişikliklərin əksəriyyəti Əmək Məcəlləsinə aiddir, digər 17 qanuna təklif edilən dəyişikliklər isə Əmək Məcəlləsində nəzərdə tutulan dəyişikliklər çərçivəsində hazırlanıb, uyğunlaşdırma və...

Bax səh. 5

## Rəqəmsal Logistika Platforması 2026-cı ildə fəaliyyətə başlayacaq

Bax səh. 4

## Sığorta bazarı böyüsə də, xidmət aşağıdır

Bax səh. 5

## "3+3" yenidən gündəmdə...

Bax səh. 6

## Yüz ilə sığmayan gün

Bax səh. 7

## Əlcəzairin ədalət istəyi, Fransanın hiddəti...



Bax səh. 7

## Zəmanətsiz zəmanətlər: Ukraynanı qoruyan sənəd varmı, yoxsa yalnız illüziya?



Bax səh. 6

# 2000-dən çox medal...







## İlham Əliyev: Bizim 5 il bundan əvvəl əldə etdiyimiz şanlı Qələbə idmançıların məsuliyyətini də böyük dərəcədə artırır. Çünki onlar müzəffər xalqın nümayəndələri kimi yarışlarda iştirak edirlər

Dekabrın 26-da 2025-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.




### Prezident İlham Əliyevin çıxışı

- Əziz idmançılar. Əziz dostlar!

Ənənəvi olaraq ilin sonunda görüşürük, ilin yekunlarını müzakirə edirik, idmançıları, idman mütəxəssislərini mükafatlandırırıq. Bu il də istisna deyil. Bu il idmançılarımız tərəfindən qazanılan medalların sayı rekord həddə çatıb. Beynəlxalq yarışlarda idmançılarımız tərəfindən 2000-dən çox medal, təqribən 600-dən çox qızıl medal qazanılıb. Bu, bir daha onu göstərir ki, idmanın inkişafı Azərbaycanda uğurla gedir. Keçən illə müqayisədə medalların sayı daha çoxdur və bu, yəqin ki, təbiidir. Çünki idmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır.

Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və dövlət xətti ilə bir çox proqramlar icra edilmişdir. İdman infrastrukturu demək olar ki, sıfırdan qurulmuşdur və bu gün ən yüksək səviyyədədir. Bölgələrdə idmanla məşğul olmaq üçün bütün şərait var. Bu il iki Olimpiya İdman Kompleksinin tikintisi başa çatmışdır - Gəncədə və Yevlaxda. Beləliklə, bölgələrdə Olimpiya İdman komplekslərinin sayı 46-ya çatıb.

Əlbəttə ki, bütün bunlar, eyni zamanda, düzgün aparılan siyasət idmanın inkişafını şərtləndirir və gəncləri idmanla məşğul olmağa daha da həvəsləndirir. Bu da çox önəmlidir. Çünki sağlam gənc nəsil yetişməsə, idman uğurlarını əldə etmək mümkün olmayacaq. Sağlam gənc nəsil, ilk növbədə, ölkənin gələcək inkişafı üçün lazımdır ki, Azərbaycan əhalisi, Azərbaycan vətəndaşları fiziki cəhətdən sağlam olsunlar. Eyni zamanda, uşaqlıqdan idmana göstərilən maraq əlbəttə ki, gələcəkdə idman uğurlarına yol açır.

Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi olsun, əbədi olsun. Əlbəttə ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır. Bu da çox müsbətdir. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər. İdmanın isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük önəmi var.

Hər dəfə bizim idmançılarımız Dövlət Bayrağını beynəlxalq yarışlarda qaldıranda əlbəttə ki, hər birimiz qürur hissi keçiririk. Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır. Əminəm ki, idmançılar da beynəlxalq yarışlarda iştirak edən zaman bunu hiss edirlər. Ölkəmizə, xalqımıza olan münasibəti hiss edirlər və idman meydançalarına, idman arenalarına çıxarkən, yəqin ki, təbii olaraq qürur hissi ilə çıxırlar. Eyni zamanda, bizim 5 il bundan əvvəl əldə etdiyimiz şanlı Qələbə idmançıların məsuliyyətini də böyük dərəcədə artırır. Çünki onlar müzəffər xalqın nümayəndələri kimi yarışlarda iştirak edirlər.

Təbii ki, bundan sonrakı illərdə bu siyasət davam etdiriləcək. İdmanla məşğul olan bütün qurumlar çox sıx əlaqəli şəkildə fəaliyyət göstərirlər. Azərbaycanda ənənəvi olaraq bir çox beynəlxalq idman yarışları keçirilir. Bəziləri ənənəvi xarakter alır, bəziləri xüsusilə çox böyük beynəlxalq idman yarışları ilk dəfə idi ki, Azərbaycanda keçirilmişdir. Bu ilin ölkəmizdə keçirilmiş əsas idman yarışı təbii ki, MDB ölkələrinin üçüncü Oyunları olmuşdur. Oyunlar çox yüksək səviyyədə keçirilmişdir. Bu Oyunların xüsusiyyəti ondan ibarət idi ki, onlar bölgələrdə - bir neçə şəhərdə keçirilmişdir. Yəni bu, özlüyündə bir göstəricidir. Təbii ki, Bakı şəhərində istənilən idman yarışını keçirmək olar. Ancaq minlərlə xarici qonağın iştirakı ilə bölgələrdə keçirilmiş MDB Oyunları əlbəttə ki, bizim potensialımızı göstərir. Gəncə şəhəri mərkəz seçilmişdi. Yarışların bəziləri digər şəhərlərdə, o cümlədən Xankəndi şəhərində keçirilmişdir. Məndə olan məlumata görə, bütün qonaqlar çox böyük minnətdarlıqla həm bizim qonaqpərvərliyimizi qeyd ediblər, həm də bölgələrimizin gözəlliyi və yaradılmış şəraitlə tanış olublar. İdmançılarımız bu Oyunlarda yaxşı nəticə göstərmişlər, komanda hesabında ikinci yerə biz layiq görüldük. Əlbəttə ki, bütövlükdə bu kimi tədbirlər ölkəmizin imicini, idman potensialını bütün dünyaya göstərir.

Bu il ölkəmizdə ilk dəfə olaraq UFC üzrə beynəlxalq turnir keçirilmişdir. Bu da dünya miqyasında ən populyar idman yarışıdır və adətən bu yarışların əksər mərhələləri Amerikada keçirilir, yaxud da ki, ən inkişaf etmiş ölkələrdə. Bakının da bu siyahıya salmağımız, ilk növbədə, ölkəmizin potensialını göstərir. Eyni zamanda, onu göstərir ki, biz artıq bu sahədə də öz fəaliyyətimizi göstərirk. Yenə də turnirin təşkilatçıları ilə görüşüm zamanı onlar da qeyd edirdilər ki, Bakının bu cür inkişaf etmiş şəhər olmasını, bu dərəcədə gözəl şəhər olmasını heç təsəvvür edə bilmirdilər, heç gözləmirdilər. Yəni minlərlə iştirakçının, xarici qonağın iştirakı ilə keçirilən və dünya mediası tərəfindən işıqlandırılan belə bir yarış ölkəmizin təqdimatının bir növüdür.

Ənənəvi olaraq Formula 1 yarışı təbii ki, bu il də keçirilmişdir və bu yarış ölkəmizin dünyaya təqdimatında xüsusi rol oynamışdır. Təkcə onu demək kifayətdir ki, birinci Formula 1 yarışından sonra ölkəmizə gələn xarici turistlərin sayı 20 faiz artmışdır və ondan sonra da artım davam edirdi, COVID-ə qədər. Sonra təbii ki, aşağı düşdü. İndi yenə də bərpa edilir və əminəm ki, gələn il daha çox xarici qonaq ölkəmizə gələcək, o cümlədən beynəlxalq idman yarışlarını izləmək üçün. Bu il keçirilmiş Formula 1 yarışının özəlliyi onda idi ki, bütün biletlər əvvəlcədən satılmışdı və hətta əlavə tribunaların quraşdırılması da nəzərdə tutulmuşdu. Halbuki şəhər yarışı olduğu üçün burada daha böyük sayda tribunaların quraşdırılması çox çətindir. Amma buna baxmayaraq, 20 min insan canlı olaraq bu yarışı izləyib. Ümumiyyətlə isə bu yarışın auditoriyası yarım milyard insana bərabərdir. Yəni bütün dünya bu yarışı izləyərkən, ilk növbədə, əlbəttə ki, həm yarışı, həm də şəhərimizin gözəlliyini görür. Təbii ki, bu da ölkəmizin təqdimatı kimi qəbul edilməlidir.

Onu da deməliyəm ki, son vaxtlar bir neçə aparıcı ölkənin şəhəri Formula 1 yarışını keçirmək üçün təşkilatçılara müraciət etmişdir və xüsusilə şəhər yarışlarını daha çox xahiş etmişdir. Çünki Bakının timsalında hər kəs görür ki, şəhər yarışı böyük dərəcədə fərqlənir. Bir sözlə, bu kimi idman tədbirləri ölkəmizin imicini böyük dərəcədə ucaldır.

Ölkəmizdə yüzlərlə idman, beynəlxalq idman yarışları keçirilmişdir və gələn il də yarışların keçirilməsi gözlənilir. Xüsusilə mən ölkəmizdə ilk dəfə olaraq keçiriləcək Xizək üzrə Dünya Kubokunu qeyd etmək istərdim. Çünki bu, ilk dəfə olaraq keçiriləcək tədbirdir və ilk ildən dünya kuboku səviyyəsində Qusarda, Şahdağ Xizək Kurortunda keçiriləcək. Bu da Azərbaycanı və Şahdağı beynəlxalq xizək idmanının cədvəlinə salmış olur. Burada da ölkələrin sayı kifayət qədər məhduddur və Azərbaycanın burada da olması, qış idmanı növündə Dünya Kubokunun keçirilməsi əlbəttə ki, böyük hadisədir.

Şahdağ Turizm Xizək Mərkəzinin inkişafı hər il təmin edilir. Hər il biz yeni traslar, yeni xizək zolaqları istifadəyə veririk. Əminəm ki, yaxın 1-2 ilə trasların uzunluğu 50 kilometri ötəcək, təqribən 55 kilometr olacaq. Gələcəkdə yeni mərhələnin inkişafı ilə bağlı da məsələlərə baxılacaq. Amma hazırda bu, bizim bölgəmizdə ən inkişaf etmiş xizək mərkəzidir və orada mövcud olan infrastruktur, hotellərin sayı və gələcək planlar, - indi özəl sektor tərəfindən oraya çox böyük maraq göstərilir,- bütövlükdə o bölgədə minlərlə iş yerinin yaradılmasına gətirib çıxarıb. Təkcə Şahdağ Xizək Mərkəzi bundan faydalanmır, bütün ətraf kəndlər, şəhərlər, orada işləyən, yaşayan insanların bir çoxu turizmin bu sektoruna da cəlb edilib.

Yeni bizim çox gözəl dəniz istirahət zonalarımız, xizək zonalarımız var. Güclü infrastruktur yaradılıbdır. Yollar, dəmir yolları, 9 beynəlxalq hava limanı, yeni şəhərlər arasındakı bağlantılar da müasirləşir. Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur işləri görülür. Artıq orada da - Köndələnçay su anbarında, Suqovuşan su anbarında yarışlar keçirilir. Gələcəkdə Sərsəng su anbarında da avarçəkmə üzrə yarışlar keçirilə bilər. Yəni ölkəmizin bu cür inkişafı, o cümlədən idman sektoruna da müsbət təsir göstərir.

Əlbəttə ki, bu il daha bir önəmli hadisə baş vermişdir. Bakı şəhəri "Dünyanın İdman Paytaxtı" seçilmişdir və bu da çox böyük hadisədir, bizim üçün böyük şərəfdir. Eyni zamanda, Azərbaycanda idmanla bağlı görülən işlərə verilən qiymətdir. Mən əminəm ki, bu şərəfli adı biz ləyaqətlə daşıyacağıq.

Əlbəttə, idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması da qeyd etdiyim kimi, bir ənənəyə çevrilib. Bu, çox gözəl ənənədir, artıq 30 ilə yaxındır ki, davam edir və hər şey ədalətli olmalıdır. Azərbaycanın idman şöhrətini ucaldan insanlar əlbəttə ki, dövlət tərəfindən qiymətləndirilməlidir və onların fəaliyyətinə layiqli münasibət göstərilməlidir.

Mən sizi qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

x x x

Sonra Azərbaycan idmanının inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi oldu.

Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Mövlud Miraliyevə, Ələkbər İmaməliyevə, Zöhrab Gözəlbəyliyə və İlahə Qədimovaya "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarının vəsiqələrini təqdim etdi.

Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elmira Aslanova, Vəfa Musayeva, Nurəddin Rəcəbov, Eduard Məmmədov, Azər Məhərrəmov, Yaqub Abdullayev, Cahangir Ağarəhimov, Fikrət Hüseynov, Cahangir Bayramov və Coşqun Əliyev "Tərəqqi" medalları ilə təltif olundular.

Dövlətimizin başçısı 2025-ci ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Şəmsi Səfərliyə, Böyükxanım Astanovaya, Morteza Validarviyə, Mehran Həmidzadəyə, Malik Həsənova, İmamverdi Məmmədova, Ramil Vəliyevə, Tofiq Əliyevə, Oqtay Abdullayevə, Nurəddin Məmmədova, Solmaz Adilovaya, Ülvi Qənizadəyə, Murad Məmmədova, Ramil Cəfərova, Aygül Abdullayevaya, Yelizaveta Rubana, Xəyyam Orucova, Elnur İbrahimə, Taleh Nağızadəyə, Nərmin Kazımovaya və Fərid Tağızadəyə yeni mənzillərin orderlərini təqdim etdi.

Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Tərlan Həsənova, Asim Xudiyevə və Qərib Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra Prezident İlham Əliyev idmançılarla söhbət etdi.

## İdmana davamlı dövlət qayğısı

*M.ABDULLAYEV*

Prezident İlham Əliyev 25 dekabr 2025-ci il tarixində idmançıların və idman mütəxəssislərinin təltif edilməsi haqqında növbəti Sərəncam imzalayıb. Sənədə əsasən, Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə bir qrup şəxs "Tərəqqi" medalı ilə təltif edilib. 4 idmançıya (Gözəlbəyli Zöhrab Katib oğlu, İmaməliyev Ələkbər Əbdülbağı oğlu, Qədimova İlahə Akif qızı, Miralıyev Mövlud Mustafa oğlu) Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilib. Əliyev Qərib Tələt oğlu, Həsənov Tərlan Əliheydər oğlu, Xudiyev Asim Xəlil oğlu isə Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüblər.

Dövlət başçısının imzaladığı sərəncamda əsasən qeyd olunan şəxslərin yüksək təltiflərə layiq görülmələri respublikamızda idmanın inkişafına göstərilən dövlət qayğısının davamlı səciyyə daşıdığının növbəti təsdiqidir. Ölkəmizdə Prezident İlham Əliyevin ilk dəfə 1997-ci il 31 iyul tarixində Milli Olimpiya Komitəsinin (MOK) prezidenti seçilməsi ilə idmanın inkişafında keyfiyyətcə yeni mərhələ başlayıb. MOK-un yeni rəhbərinin milli təəssübkeşliyi, perspektivli idmançılara böyük qayğı ilə yanaşması, klubların, federasiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi bütövlükdə ölkənin idman həyatında yüksəliş dalğası yaradıb. Ötən dövrdə paytaxt Bakıda və regionlarda beynəlxalq standartlara cavab verən müasir idman infrastrukturu qurulub. Hazırda ölkəmiz idman infrastrukturu təminatı baxımından dünyanın inkişaf etmiş ölkələrindən geri qalmır. Təkcə belə bir faktı qeyd edək ki, son 22 ildə Prezident İlham Əliyevin göstərişləri əsasında paytaxt Bakıda və regionlarda 50-dək müasir Olimpiya İdman Kompleksi tikilərək istifadəyə verilib.

Öz növbəsində geniş əhatə dairəsinə malik olan dövlət qayğısı ölkəmizdə idmanın inkişafına və bunun nəticəsi olaraq idmançılarımızın yüksək nəticələr qazanmalarına güclü stimul verir. Son illərdə ölkəmizin Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, III MDB Oyunlarınna, Formula - 1 yarışlarına uğurla ev sahibliyi etməsi beynəlxalq idman ictimaiyyətinin respublikamıza olan etimadının artmasını, Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını əyani şəkildə təsdiqləyir. Davamlı dövlət qayğısı Azərbaycan idmanını beynəlxalq səviyyəyə yüksəldib. İdmançılarımızın dünya çempionatlarında, olimpiadalarda qələbələr qazanmaları, bayrağımızı ucaltmaları, himnimizi səsləndirmələri son dərəcə qürurvericidir.

# Azərbaycan ədaləti bərpa etdi

## Bizim iradəmizin qarşısında heç kim dura bilməz!



Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ağır və ədalətsiz bir sınaqla üz-üzə qaldı. Ermənistanın açıq işğalçılıq və təcavüzkar siyasəti nəticəsində ölkəmizin əraziləri zəbt olundu, yüz minlərlə azərbaycanlı doğma yurd-yuvasından didərgin salındı. Bu proses təkcə regional münaqişə deyildi, eyni zamanda beynəlxalq hüququn və ədalətin sınağı idi. Azərbaycan beynəlxalq aləmdən sadəcə bir şey tələb edirdi: mövcud hüquqi mexanizmlərin işləməsi və ədalətin bərpa olunması. Lakin "beynəlxalq ictimaiyyət" adlanan strukturlar bu məsələdə prinsipial mövqe ortaya qoymadı, əksinə, ikili standartlar nümayiş etdirdi.

### Məqsəd işğalı əbədi etmək idi...

Beynəlxalq hüququn əsas sənədləri, xüsusilə də BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünü tanıyan və işğalçı qüvvələrin qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi illərlə kağız üzərində qaldı. Bu qətnamələrin icrası üçün real siyasi iradə göstərilmədi, işğalçı ilə işğala məruz qalan tərəf arasında süni "tarazlıq" yaradıldı. Nəticədə, beynəlxalq mexanizmlər problemi həll etmək əvəzinə onu dondurdu, ədalətsiz status-kvonun qorunmasına xidmət etdi. Otuz ilə yaxın davam edən bu vəziyyət göstərdi ki, beynəlxalq hüquq yalnız onu müdafiə edəcək güc və iradə olduqda işlək mexanizmə çevrilir.

Burada xüsusilə, 30 il "münaqişənin ədalətli əhllində vasitəçi" rolunu üzərinə götürmüş ATƏT-in Minsk qrupuna diqqət çəkmək lazımdır. Sözdə "ədalətin bərpası"na hesablanaraq yaradılan bu struktur heç də bu işlə məşbul olmadı - tam əksinə, işğalçıya və işğala haqq qazandırmaq üçün müxtəlif "yollar" aradı. Prezident İlham Əliyev Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı zamanı buraya köçən sakinlərlə görüşündə bildirib ki, bütün xalqımız, o cümlədən keçmiş köçkünlər bilirdilər və inanırdılar ki, tarixi ədalət bərpa ediləcək: "Halbuki Ermənistan-Azərbaycan münaqişəsi ilə məşğul olan, hər halda beynəlxalq təşkilatlar tərəfindən bu vəzifəni icra etməli olan qurumlar başqa fikirdə idi. Onlar Ermənistan dövləti ilə, işğalçı, talançı dövlətlə həmrəy idilər. Xüsusilə ATƏT-in Minsk qrupunun yarıtmaz və anti-Azərbaycan fəaliyyətini qeyd etmək istərdim. Bu qrup 1992-ci ildə yaradılmışdır və o vaxt bizim torpaqlarımızın işğal altına düşməsinin birinci mərhələsi idi. Bu qrupun və onun həmsədrlərinin məqsədi məsələni həll etmək əvəzinə, əksinə, bu işğalı əbədi etmək, Ermənistana haqq qazandırmaq, Azərbaycan xalqını və dövlətini isə işğalla barışdırmaq idi. Mən 17 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmasda olmuşam, onlarla çoxsaylı görüşlər keçirmişəm. Hər dəfə görüşəndə illər keçdikcə görürdüm ki, bunların məqsədi məsələni həll etmək, işğala son qoymaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq yox, işğalı əbədi etmək idi".

### Minsk qrupunun "missiyası"...

ATƏT-in Minsk qrupu fəaliyyəti dövründə yalnız bir missiya üçün xidmət göstərdi - Ermənistanı qorumaq, işğalı rəsmiləşdirmək, bölgədə siyasi vəziyyəti İrəvanın xeyrinə dəyişmək. Amma Azərbaycan özünün qətiyyətli yolundan dönmədi. Azərbaycan öz suveren hüquqlarını və tarixi ədaləti öz gücü hesabına bərpa edəcəyini hər zaman bəyan edirdi. İstər 2016-cı ildə, istər 2020-ci ildə, istərsə də 2023-cü ildə atılan addımlar Azərbaycanın öz hədəfində qəti olduğunu göstərdi. Artıq Minsk qrupu da reallığı görürdü - Azərbaycana nə təzyiq, nə də təsir etmək mümkün deyildi. Vətən müharibəsindən sonra 2020-ci il dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edən zaman Prezident İlham Əliyev bildirmişdi ki, "Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb". Dövlət başçısı qeyd etmişdi ki, "Mən Minsk qrupunu səfərə dəvət etməmişəm". Əslində bu adıçəkilən qurumun fəaliyyətsizliyinin açıq bəyanatı idi.

### ATƏT-in Minsk qrupunun ləğvi bizim tələbimiz idi

2020-ci il Vətən müharibəsinin nəticələri Minsk qrupunun ləğvini aktuallaşdırdı. Bu qələbə göstərdi ki, problemin həllinin real açarı beynəlxalq mexanizmlərdə deyil, Azərbaycanın öz iradəsindədir. Suverenliyin 2023-cü ildə tam bərpası isə Minsk qrupunun vasitəçilik modelinin sona çatdığını rəsmiləşdirdi. Bu ilin avqustunda Vaşinqtonda ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət imzalandı. Bu müraciət ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə idi. Birgə müraciətdən sonra təşkilat Nazirlər Şurasının 2025-ci il sentyabrın 1-də qəbul edilmiş qərarına uyğun olaraq 2025-ci il noyabrın 30-da saat 23:59-da Minsk Prosesi və onun əlaqədar strukturlarının bağlanmasını yekunlaşdırdı. Bu, Azərbaycanın növbəti qələbəsi idi. Prezident bildirib ki, mənfur Minsk qrupunun tarixin arxivinə göndərilməsi də məhz bizim təkidimizlə olmuşdur: "Bu ayın əvvəlində Minsk qrupu və ona bağlı olan bütün təsisatlar rəsmən ləğv edildi. Bu da bizim tələbimiz idi və Ermənistan tərəfi demək olar ki, 5 il ərzində buna müqavimət göstərirdi. Ancaq yenə də deyə bilərəm ki, bizim iradəmizin qarşısında heç kim dura bilməz".

### Heç bir xarici format Cənubi Qafqazın siyasi gündəmini müəyyən etmir...

Minsk qrupunun fəaliyyətinin rəsmi olaraq sona çatması, ləğvi Bakının suveren sülh təşəbbüslərinin beynəlxalq səviyyədə qəbul olunduğunu göstərir. Artıq heç bir xarici format Cənubi Qafqazın siyasi gündəmini müəyyən etmir; proseslərin mərkəzində Azərbaycan dayanır. Paralel olaraq ATƏT-in Minsk qrupunu tam şəkildə ləğv etməsi yalnız texniki qərar deyil, Azərbaycanın uzun illər apardığı mübarizənin qalibiyyətlə başa çatmasının siyasi təsdiqidir. Bu addım həm 2020-ci ildə əldə olunan qələbənin, həm də 2023-cü ildə suverenliyin tam bərpasının beynəlxalq legitimləşməsi kimi qiymətləndirilməlidir. Artıq Cənubi Qafqazda yeni reallıq formalaşıb və bu reallığı müəyyən edən əsas aktor Azərbaycan dövlətidir.

***Pərviz SADAYOĞLU***

---

# Bölgənin nəbzi Bakı vaxtı ilə vurur!

Azərbaycan regionda sabitliyin əsas təminatçısı kimi çıxış edərək Cənubi Qafqazda yeni siyasi təhlükəsizlik arxitekturasının formalaşmasına nail olub. Suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpası yalnız hərbi qələbə ilə məhdudlaşmadı, eyni zamanda bölgədə uzun illər davam edən qeyri-müəyyənliyə son qoyan fundamental geosiyasi reallıq yaratdı. Bu gün məhz Azərbaycanın təşəbbüsü və iradəsi ilə irəli sürülən sülh gündəliyi regional inkişafın əsas istiqamətini müəyyənləşdirir. Yeni kommunikasiya xətləri, iqtisadi inteqrasiya imkanları və təhlükəsizlik mexanizmləri Bakının müəllifi olduğu bu prosesin tərkib hissəsidir. Bir sözlə, bölgənin nəbzi Bakı vaxtı ilə vurur.

## Sülhü və sabitliyi qorumaq üçün: Ayıq olmalıyıq, daim güclü olmalıyıq...






Lakin mövcud reallıqlar arxayınlıq üçün əsas vermir. Tarix və beynəlxalq təcrübə göstərir ki, sülh yalnız güclü dövlətlərin qoruyub saxlaya bildiyi dəyərdir. Bu baxımdan Azərbaycan daim ayıq-sayıq olmalı, populist bəyanatlara və zahiri xoş niyyət nümayişlərinə aldanmamalıdır. Milli maraqların təminatı üçün iqtisadi potensialın daha da gücləndirilməsi, ordunun müasir çağırışlara uyğun inkişafı və diplomatik mövqelərin genişləndirilməsi strateji zərurət olaraq qalır. Çünki davamlı və ədalətli sülhə nail olmağın yeganə yolu potensial

### Potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq...

təhdidlərdən hər zaman bir neçə addım öndə olmaq, güc balansını ölkəmizin xeyrinə saxlamaqdır. Prezident İlham Əliyev Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı zamanı buraya köçən sakinlərlə görüşündə bildirib ki, şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq: "Ayıq olmalıyıq, daim güclü olmalıyıq. Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi. Əbədi sülhə nail olmaq üçün biz hər zaman potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq. Bunu təmin edirik və edəcəyik".

### Hamilərin "çətiri" altında...

30 il torpaqlarımız işğal altında saxlanmaqla yanaşı, ölkəmizə qarşı da selektiv münasibət nümayiş etdirilib. Təcavüzkar dövlətə maddi-hərbi yardımlar edilib, onun dirçəlməsi üçün səy göstərilib. İşğal dövründə, 1998-ci ildə Rusiya tərəfindən Ermənistana 1 milyard dollar məbləğində silah-sursat verilməsi, bu prosesin sonrakı illərdə müntəzəm qaydada davam etməsi yaddan çıxmayıb. Ermənistan o dövrdə bütün beynəlxalq hüququ ayaqlar altına almışdı - hətta Azərbaycanın işğal altında olan ərazilərində Ermənistan hərbi qüvvələri xidmət göstərirdi. Beynəlxalq hüquqa qarşı bu qədər saymamazlıq belə beynəlxalq reaksiyaya səbəb olmurdu - Ermənistana qarşı heç bir tədbir həyata keçirilmirdi.

Cəzasızlıq isə işğalçını daha böyük hüquq pozuntularına şirnikləndirdi. Nəticədə, Azərbaycanla bağlı ritorikasında yeni işğal haqqında danışmağa başladı - bu, birmənalı şəkildə xarici qüvvələrin dəstəyinə, himayədarlığına arxayınlıqdan qaynaqlanırdı.

### Rusiya təyyarələri, İran "TIR"ları, Fransa "karvanı"...

2016-cı ildə baş vermiş Aprel döyüşləri Ermənistan və onun hamiləri üçün bir siqnal oldu - Bakı cəmi 4 gün ərzində Ermənistana dərs verdi. Ermənilərin özləri haqda yaratdıqları "mif" darmadağın oldu. Məlum oldu ki, Azərbaycanın həm iqtisadi, həm hərbi gücü, həm də diplomatik durumu işğalı sonlandırmaq üçün tam hazırdır. Amma yenə də himayədarlar "işə daxil oldular" - 2016-cı il Aprel döyüşlərindən sonra Ermənistana ixracı qadağan olunan "İskəndər M" raketləri verildi. Məhz həmin raketlərlə II Qarabağ müharibəsi zamanı Şuşa vurulmuşdu. Sirr deyil ki, bu raketlər Ermənistana Rusiyanın "hədiyyəsi" idi və Moskvanın məqsədi bəlli idi. Bu proses, yəni Ermənistana silah-sursat verilməsi, onun stimullaşdırılması 44 günlük müharibədə daha aydın şəkildə göründü:

- Ermənistana Rusiyadan təyyarələrlə silah-sursat daşındı;
- İran ərazisindən Ermənistana silah-sursat keçirildi;
- Fransadan böyük "TIR" karvanları İrəvana yol aldı.

Həmin günlərdə bütün bu faktlar mediada öz əksini tapmışdı - hətta silah daşıyan Rusiya təyyarələrinin uçuş trayektoriyaları, İranın yük maşınlarının, dəmir yolu vasitəsilə silah daşınmasının videogörüntüləri belə vardı.

Bunu təsdiqləyən ən böyük fakt isə müəyyən miqdarı Bakıda olan Hərbi Qənimətlər Parkındadır. Ümumilikdə müharibə və antiterror əməliyyatı zamanı Azərbaycanın məhv etdiyi və qənimət götürdüyü silahların məbləği 5-6 milyard dollar təşkil edib. Təsəvvür edilə bilər ki, ümumilikdə maliyyə resursu olmayan Ermənistana hansı həcmdə hərbi yardım göstərilib.

Həmin yardımlar bu və ya digər şəkildə yenə də davam edir. Fransa və Hindistanın timsalında İrəvan silahlandırılır. Fransa Ermənistana 26 ədəd "Bastion" zirehli transportyoru "satıb". Həmçinin, Paris İrəvana onlarla "Sezar" artilleriya qurğusu ötürüb. 2024-cü və 2025-ci illərdə bu proses aktiv şəkildə aparılıb. Hələ 2024-cü il iyunun 17-də Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı iki tərəf arasında 36 ədəd "CAESAR" özüyeriyən artilleriya sistemlərinin alınmasına dair müqavilə imzalanmışdı. Bu artilleriya sistemlərinin hər biri 5,5 milyon avro dəyərində qiymətləndirilir. Beləliklə, 36 artilleriya sistemi və həmin sistemlər üçün mütləq 155 mm-lik mərmilər əldə edən İrəvan azı 200 milyon avro vəsait xərcləyib. Bu pullar hardandır? Axı Ermənistanın bu qədər pulu yoxdur.

### Fransa və Hindistandan milyardlıq silah təminatı...

Və ya Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) məlumatına görə, 2022-2024-cü illərdə Ermənistanın idxal etdiyi silahların ümumi həcminin 43 faizi Hindistandan gəlib. Son illər Hindistan Ermənistan silahlı qüvvələrinin əsas silah tədarükçüsünə çevrilib. Tərəflər 2022-2023-cü illərdə yüz milyonlarla dollar dəyərində müqavilələr imzalayıblar. Sazişlər çərçivəsində Nyu-Dehli Ermənistana çoxsaylı raket sistemləri, özüyeriyən haubitsalar, hava hücumundan müdafiə sistemləri və müxtəlif döyüş sursatlarını təhvil verib. Hindistan Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistan təkcə 2024-2025-ci maliyyə illəri üçün Hindistandan 600 milyon dollarlıq silah alıb.

Bu, olduqca böyük rəqəmlərdir və Ermənistanın iqtisadi gücü həmin borcu qarşılamaq durumunda deyil. Maliyyə resursları olmayan Ermənistan Hindistanla milyardlarla dollar həcmində silah alışı müqavilələrini hansı mənbələr hesabına bağlayır? Təbii ki, mənbələr dəyişmir - Cənubi Qafqazda sülhün bərqərar olmasını istəməyən, sülhə qarşı olan "ünvanlar" burada əsas mənbə rolunda çıxış edir.

***Pərviz SADAYOĞLU***



# Azərbaycan-Çin: uzunmüddətli inkişaf hədəfləri

## Hər iki ölkənin müştərək iqtisadi layihələri region üçün yeni imkanlar açacaq

Çin hökuməti ölkənin uzunmüddətli inkişaf strategiyasının prioritetlərini əks etdirən "15-ci beşillik plan" layihəsini qəbul edib. Bu günlərdə beynəlxalq ictimaiyyətə təqdim edilən sənəd Çinin qarşıdakı beş il və sonrakı on illik perspektiv iqtisadi və sosial inkişafının ümumi çərçivəsini və strateji ssenarilərini müəyyənləşdirir. Bu hədəflərə yüksək keyfiyyətli inkişafda əhəmiyyətli irəliləyişə nail olunması, texnoloji özünütəminetmə səviyyəsinin yüksəldilməsi, hərtərəfli islahatların dərinləşdirilməsi, sosial sivilizasiyanın təkmilləşdirilməsi, əhalinin həyat keyfiyyətinin artırılması, yüksək tərəqqinin təmin edilməsi və və milli təhlükəsizliyin möhkəmləndirilməsi daxildir.

Çinin Azərbaycandakı səfiri Lu Mey bildirib ki, dayanıqlı inkişafının təmin edilməsində beşillik planlar mühüm töhfələr verməkdədir. Həmin proqramların icrası sayəsində Çin 1952-2024-cü illər ərzində yüksək iqtisadi göstəricilər əldə edib, ümumi daxili məhsulun (ÜDM) həcmi orta hesabla ildə 7,9 faiz artıb. Nəticədə Çin dünyanın ikinci ən böyük iqtisadiyyatına, ən iri istehsalçı dövlətə və ticarət dövriyyəsinin həcminə görə, ən böyük ölkəyə çevrilib. Hazırda qlobal iqtisadi artımın təxminən 30 faizini sabit şəkildə təmin edir.

**Çin növbəti onillikdə qlobal iqtisadiyyatda birinciliyi hədəfləyir**

Lu Meyin sözlərinə görə, Çin 2035-ci ilədək iqtisadi, texnoloji və müdafiə potensialını əhəmiyyətli dərəcədə gücləndirməyi, beynəlxalq nüfuzunu artırmağı, adambaşına düşən ÜDM-i orta inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırmağı və sosialist modernləşməsi məqsədlərini əsasən reallaşdırmağı qarşıya məqsəd qoyub.

Diplomat vurğulayıb ki, dünya iqtisadiyyatının bərpasının ləngidiyi, geosiyasi gərginliyin və qeyri-müəyyənliyin artdığı şəraitdə "15-ci beşillik plan" Çinin dünyaya inamlı və açıq kursunu nümayiş etdirir, qlobal inkişafa sabitlik və proqnozlaşdırıla bilən üstünlük gətirir, ölkənin beynəlxalq ictimaiyyətlə artım imkanlarını bölüşməyə hazır olduğunu təsdiqləyir.

Ərazisinin  böyüklüyünə görə dünyanın 3-cü ölkəsi, iqtisadiyyatının həcminə görə isə 2-cisi olan Çin Xalq Respublikası növbəti onillikdə qlobal iqtisadiyyatda birinciliyi hədəfləyir. Buna ölkənin resurs imkanları, mövcud iqtisadi potensialı və ümumdünya ticarət sistemində aramsız artan gücü də zəmin yaradır. Ölkənin ən nüfuzlu iqtisadi analitik qrupu hesab edilən Çonyanq Maliyyə Araşdırmaları İnstitutunun hesablamalarına görə, hazırkı illik 5-6 faiz iqtisadi artım tempinin qorunub saxlanması sayəsində 2035-ci ildə ÜDM-in həcmi orta hesabla 30,5 trilyon dollara çatacaq. Hazırda ölkənin ÜDM-nin həcmi 18 trilyon dollara bərabərdir. Çinin əsas rəqibi ABŞ-ın ÜDM-nin həcmi isə 26 trilyon dollar təşkil edir.

**Bakı-Pekin strateji tərəfdaşlığı bölgənin iqtisadi xəritəsini dəyişir**

Lu Mey bildirib ki, Azərbaycan və Çin arasındakı münasibətləri dəyərləndirərək vurğulayıb ki, hər iki ölkə inkişaf, dirçəliş yolunda yaxın tərəfdaşdır, iqtisadi əməkdaşlığın inkişafını təşviq edən iradəli addımlar atır.

Azərbaycan və Çin strateji tərəfdaş, iqtisadi imkanlar və əlaqələr baxımından ən yaxın dövlətlərdir. Çin Asiyanın və dünyanın iqtisadi güc mərkəzlərindən biri, Azərbaycan isə Cənubi Qafqaz regionunda söz sahibi, liderdir. Siyasi-iqtisadi amillər, nəqliyyat-tranzit qovşaqları, geosiyasi amillər və digər mühüm faktorlar hər iki ölkəni bir sıra ortaq baxış və strateji maraqlarını tamamlayır. Prezident İlham Əliyevin ötən illərdə və cari ildə Çinə səfərləri, habelə bu ölkənin hökumət heyətlərinin respublikamıza səfərləri dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsinə səbəb olub. Hökumət üzvlərinin, iqtisadi qurumlarının və biznes icmalarının qarşılıqlı səfərləri və əldə edilən razılaşmalar iqtisadi-ticari münasibətləri daha da irəliyə aparıb. Bir neçə ay əvvəl tərəflər arasında imzalanmış yeni sazişlər, o cümlədən qarşılıqlı vizasız gediş-gəlişi haqqında sənədin qüvvəyə minməsi münasibətləri yeni yüksək mərhələyə çatdırıb.

**Cənubi Qafqazda birinci**

Azərbaycan və Çin arasında iqtisadi-ticarət dövriyyəsi son 10 ildə ən yüksək səviyyəyə çatıb. Belə ki, 2015-ci ildə isə qarşılıqlı mal dövriyyəsinin həcmi 500 milyon dollar idisə, 2024-cü ildə iki ölkələr arasında əmtəə dövriyyəsinin həcmi əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb. Bu ticari balans dinamikası 2025-ci ilin yanvar-noyabr aylarında da artıb və əmtəə mübadiləsinin həcmi 4,2 milyard dolları ötüb.

Beləliklə, Çin Cənubi Qafqazda Azərbaycanın birinci iqtiadi-ticari tərəfdaşı olmaqla bu bölgənin cəmi ticarət mübadiləsinin 70 faizə yaxınını Azərbaycanla həyata keçirir.

Çin, eyni zamanda, Cənubi Qafqazda ən çox sərmayələri Azərbaycana yönəldib. Asiya nəhənginin ölkəmizə yatırdığı investisiyaların həcmi 942 milyon dollara çatıb. Həmin sərmayələrdən başqa, Çin şirkətləri ölkəmizdə müxtəlif sahələrdə iri layihələr icra edib. Eyni zamanda, Azərbaycan özü də potensial sərmayədar dövlət kimi Asiyanın maliyyə sektorunda öz mövqeyini gücləndirir və Dövlət Neft Fondunun investisya portfelinin 2,1 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə etməkdədir. Bu gün Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb, onlardan 298-i ölkəmizdə aktiv fəaliyyət göstərir.

**"Kəmər və yol" təşəbbüsü Zəngəzuru qlobal haba çevirir**

Azərbaycan və Çinin təşəbbüskarlığı ilə "Bir kəmər, bir yol"un yeni körpüsü olan Orta Dəhliz regional haba çevrilir. Asiya, Xəzəryanı ölkələri və Avropanın vahid logistika zəncirində birləşdirən bu dəhlizin əsas şaxələri olan Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi, həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Çinin müəllifi olduğu "Kəmər və yol" təşəbbüsünə tam inteqrasiya olunmaqdadır. Bu logistik kommunikasiyada artan tranzitlər sayəsində təkcə Azərbaycan ilə Çin arasında daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur.

Uzunmüddətli hədəf regiondakı tərəfdaşları və coğtafi hüdudları daha da genişləndirməkdir. Yaxın illərdə Orta Dəhlizin Zəngəzurla birləşməsi Şərqdən gələn böyük iqtisadi resursların, mal və xidmətlərin Avropaya çıxarılmasını və  əmtəə zəncirinin genişlənməsini təmin edəcək, nəticədə Azərbaycan tranzit və əlaqələndirici ölkə kimi strateji mövqeyi daha da güclənəcək, Çin və Azərbaycanı iqtisadi blokda bağlantılarını artırmaqla, eyni zamanda, geosiyasi dividentləri də artıracaq.

**İnkişaf yolu və hədəflərdə oxşarlıq**

Strateji tərəfdaş ölkələr olan Azərbaycan və Çin yeni çağırışlar fonunda iqtisadi inkişagın müasir gündəliyini müəyyən edir, daha ambisiyalı inkişaf hədəflərini qarşıya qoyur. Azərbaycan hökuməti də Çin dövləti kimi uzunmüddətli iqtisadi hədəflər elan edərək daha güclü iqtisadiyyat quruculuğunu ali məqsədlərdən biri hesab edir.

Azərbaycan ötən illər ərzində genişşaxəli islahatlar həyata keçirərək regionun qüdrətli və dinamik inkişaf edən dövlətinə çevrilib. Son 22 il ərzində Azərbaycan iqtisadiyyatı nominal ifadədə 14,8 dəfə böyüyərək əsas iqtisadi göstərici olan ÜDM-in həcmi 134 milyard manata çatıb. Dövlət büdcəsinin gəlir və xərcləri 32 dəfə artaraq 1,2 milyard manatdan 39,9 milyard manata yüksəlib. Xarici valyuta ehtiyatları 49 dəfə artaraq 83 milyard dollara çatıb. Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-dək və ya 51,6 faiz artıb və xarici ticarət dövriyyəsi 5,2 milyard dollardan 56 milyard dollara yüksəlib.

Azərbaycan hazırda Cənubi Qafqaz iqtisadiyyatının lokomotividir. Bu regionda Azərbaycan ÜDM-in həcminə görə, şəksiz liderdir. Cənubi Qafqaz iqtisadiyyatının ümumi həcmi 108 milyard dollar təşkil edir ki, onun 65 faizindən çoxu Azərbaycanın payına düşür. Eləcə də bölgənin maliyyə-büdcə ehtiyatlarının 62 faizi Azərbaycanın sərəncamındadır.

Bu baxımdan regionun lider dövləti olan Azərbaycanla Çinin inkişaf yolu arasında oxşarlıq mövcuddur. Hər iki ölkənin iqtisadi ssenarilə arasında bir yaxınlıq olduğunu qeyd etmək mümkündür. Ən əsası isə hər iki ölkənin qlobal iqtisadi prioritetləri əksər məsələlərdə üst-üstə düşür, xüsusilə də nəqliyyat-logistika, kommunikasiya, "yaşıl enerji" və rəqəmsal proqramlarda Bakı və Pekinin ortamüddətli fəaliyyət prinsipləri bir çərçivəyə əsaslanır.



Azərbaycanın 2030-cu ilə dair prioritetləri

Tarixi Zəfərlə regionda yeni reallıqların müəllifinə çevrilən Azərbaycan post-münaqişə dövrünün bərpa və inkişaf yolunda irəliləməklə iqtisadiyyatın yeni strateji kursunu və rəqəmsal xəttini müəyyənləşdirir. Həmin strateji hədəflər Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində əhatəli şəkildə öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Böyük Qayıdışa dair II Dövlət Proqramı" və digər əhəmiyyətli proqramlar təsdiq edilib.

Həmin strtaeji proqramlarda əldə olunmuş sosial-iqtisadi nailiyyətlərin davamlı inkişafının təmin edilməsi, birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, biznes mühitinin daha da gücləndirilməsi, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti quruculuğuna nail olmaq üçün insan kapitalının və rəqəmsal iqtisadiyyatın genişləndirilməsi, iqtisadi suverenliyin möhkəmləndirilməsi kimi hədəflər müəyyənləşdirilib. Eləcə də işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin olunması üçün məqsədyönlü siyasət və islahat istiqamətlərinin müəyyənləşdirilməsi vacib hesab olunur.

Hökumətin inkişaf ssenarilərini əks etdirən "2026-2029-cu illər üzrə Ortamüddətli Xərclər Çərçivəsi"nə əsasən, 2026-cı ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcək. Proqnozlara görə, 2026-cı ilin sonuna ÜDM-in həcmi 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcmi 101,7 milyard manat təşkil edəcəyi,  2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata qədər, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 129,5 milyard manata qədər artacağı gözlənilir. ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-nin 4,9 faiz olacağı fərz edilir. Qeyri-neft yığım mənbələrinin genişlənməsi sayəsində 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının daha da artaraq 80 faizə çatacağı fərz olunur.

2026-cı ildə əsas kapitala olan investisiyalarda 6,9 faiz, ortamüddətli dövrdə isə orta illik 3,9 faiz artım olacağı proqnozlaşdırılır. İnflyasiyanın isə azalaraq baza ssenaridə gələn il üzrə 5,7 faiz, orta illik inflyasiya növbəti illərdə tədricən azalaraq 2029-cu ildə 4,2 faiz olacağı gözlənilir. Əhalinin gəlirlərinin artaraq 2029-cu ildə 123,2 milyard manata, xərclərinin isə 120,6milyard manata qədər yüksəlməsi gözlənilir. 2026-2029-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülüb.

**"Yaşıl nəqliyyat", "ağıllı texnologiya" şirkətləri ilə birgə planlar**

Həmin hədəflərin gerçəkləşməsi üçün ən qabaqcıl rəqəmsal şirkətlərlə təcrübə mübadilələri həyata keçirilir, innovasiya və startap ekosistemi formalaşdırılır, süni zəka arxitekturası qurulur və dünyanın iri intellekt icması ilə sıx mübadilələr təmin edilir, rəqəmsal sənayeyə sərmayələr yatırılır. Bu prosesdə Azərbaycan hökuməti beynəlxalq biznes icması və xarici investorlarla, qlobal maliyyə institutları, ən qabaqcıl texnoloji şirkətlərlə sıx əməkdaşlıq etməkdədir, onların sırasında Çin şirkətləri də xüsusi yer tutur. Bu ölkənin "Huawei", "Tencent", "Alibaba" və digər şirkətləri dünya bazarında İT və elektron ticarətin atributları sayılır, Azərbaycan bu İT nəhəngləri və digər "ağıllı texnologiya" şirkətləri ilə də razılaşma sənədləri imzalayıb. Eləcə də "yaşıl nəqliyyat" layihəsi çərçivəsində birgə əməkdaşlıq qurulub. Ölkəmizdə BYD şirkəti ilə birlikdə elektrik avtobuslarının istehsalına başlanması bu layihənin bir hissəsidir. Sumqayıt Sənaye Parkında istehsal olunmuş 50 elektrobus artıq istifadəyə verilib. Müəssisə ilin sonunadək 300 elektrobus istehsal etməyi planlaşdırır. Həmin elektrobuslar Bakı, Naxçıvan və Qarabağda istifadə olunacaq.

Bu və digər nəhəng iqtisadi layihələri nəzərə aldıqda, Azərbaycanın 2030-cu ilə dair inkişaf planı ilə Çinin iqtisadi hədəflərinin üst-üstə düşdüyünü görmək olar.

Strateji tərəfdaşlıq və birgə təşəbbüslər Azərbaycan ilə Çinin regional və qlobal səviyyədəki təsir imkanlarını da artırmış olur. Bu nöqteyi-nəzərdən yaxın 5 illik inkişaf ssenarilərinin hərətərəfli qlobal əməkdaşlıq, sülh və rifah quruculuğuna fokuslandığını aydın sezmək mümkündür.

***ELBRUS CƏFƏRLİ***

# Rəqəmsal Logistika Platforması 2026-cı ildə fəaliyyətə başlayacaq

Rəqəmsal Logistika Platforması 2026-cı ilin əvvəlindən mərhələli şəkildə ilin sonuna qədər istifadəyə veriləcək. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bildirib ki, hazırda 13 dövlət qurumu xidmətlərinin inteqrasiyasını tamamlayıb, bu, faktiki olaraq Rəqəmsal Logistika Platformasında beynəlxalq ticarət əməliyyatları üzrə prosedurların 65 faizinin elektronlaşması deməkdir. Digər təşkilatlar isə inteqrasiyanı yaxın aylarda yekunlaşdıracaq. Ümumilikdə, 30-dan artıq dövlət qurumu bütün xidmətlərini həmin platformaya inteqrasiya edəcək.  Nəticədə yeni platforma işlək rejimdə bütün ticarət rejimlərini - idxal, ixrac və tranziti əhatə etməklə, lisenziyaların və sertifikatların əldə olunmasını da vahid pəncərə əsasında reallaşdıracaq. Bütün dövlət qurumlarının və aidiyyati strukturların xidmət bloklarının vahid pəncərəyə qoşulmasından sonra biznes icmasının və digər bütün e-ticarət iştirakçılarının bir ticarət bələdçisi üzərindən idxal və ixrac prosesləri, habelə tranzit-logistika sxemləri rəqəmsal arxitektura əsasında tənzimlənəcək.

**Xarici ticarət iştirakçıları üçün əlçatan ekosistem**

Qeyd edək ki, Rəqəmsal Logistika Platforması ((DLP - Digital Logistics Platform) dövlət başçısının müvafiq fərmanına əsasən, qurulmaqdadır. Məqsəd Azərbaycanda beynəlxalq ticarət əməliyyatlarının rəqəmsallaşdırılması, xarici ticarət iştirakçıları ilə aidiyyəti dövlət orqanları arasında real vaxt rejimində inteqrasiyasının təmin edilməsi və ölkəmizin logistika sahəsində rəqabət qabiliyyətini gücləndirməkdir.




DLP - idxal, ixrac və tranzit əməliyyatlarını vahid "elektron bir pəncərə" üzərindən idarə etməyi hədəfləyən innovativ platforma hesab edilir. Prosedur və fəaliyyətlərin mümkün dərəcədə sadələşdirilməsini ehtiva edən informasiya sistemi ilk növbədə xarici iqtisadi fəaliyyətdə mövcud olan və kağız üzərində aparılan çoxsaylı pərakəndə və səmərəsiz proseslərin aradan qaldırılmasını, xarici ticarət iştirakçıları və aidiyyəti dövlət orqanları arasında rəqəmsal mühitdə məlumat mübadiləsinin və inteqrasiyaların təmin edilməsini, eləcə də proseslərin xarici ticarət iştirakçıları üçün əlçatan və vahid mərkəzdən idarə oluna bilməsini nəzərdə tutur.

**Ticarət əməliyyatları "ağıllı sistem"lə idarə olunacaq**

Xarici iqtisadi fəaliyyət çərçivəsində idxal, ixrac və tranzit əməliyyatlarına dair sənədlərin əldə olunması üçün müxtəlif qurumlara ayrıca müraciət tələb olunur ki, bu da həm elektron, həm də fiziki prosedurların uzanmasına, vaxt itkisinə və eyni məlumatların təkrar təqdim edilməsinə səbəb olur. Bu baxımdan mal və nəqliyyat xidmətlərinin fasiləsiz hərəkətinin təmin olunması, sərhəd-keçid və nəqliyyat prosedurlarının beynəlxalq standartlara uyğunlaşdırılması üçün sadələşdirilmiş, istifadəçi yönümlü, "vahid pəncərə" prinsipi ilə işləyən, qurumların məsuliyyətini ayrı-ayrılıqda müəyyən edən və icra keyfiyyətini, həmçinin sürətini ölçmə imkanı verən bir nəqliyyat-logistika platformasının yaradılması təxirəsalınmaz tələb idi.

Qeyd olunan çağırışlara uyğun hazırlanacaq DLP informasiya sistemi nəqliyyat və logistika sahəsi üzrə fəaliyyətlərin şəffaflaşdırılması, sadələşdirilməsi, həmin fəaliyyətlərin operativliyinin, səmərəliliyinin və proqnozlaşdırma keyfiyyətinin artırılması, o cümlədən yük axınlarının "ağıllı" idarə edilməsi, daşınan yüklərin bütün hərəkət marşrutu boyunca izlənilməsi və yükdaşıma müddətlərinin optimallaşdırılması üçün əlaqəli proseslərin və sənəd mübadiləsinin rəqəmsallaşdırılmasını, aidiyyəti dövlət orqanlarının idxal-ixrac və tranzit əməliyyatlarına dair monitorinqlər aparmasını və statistik məlumatların emal olunmasını nəzərdə tutur.

**Startapların rəqəmsal sənayeyə inteqrasiyası, "Amazon"la əməkdaşlıq**

"Rəqəmsal dövlət" quruculuğu strategiyasına əsasən, rəqəmsal ticarətlə yanaşı, sənayenin inkişaf etdirilməsi də nəzərdə tutulur. Bu prosesin əsas hərəkətverici qüvvəsi kimi kiçik və orta sahibkarlıq subyektləri arasında rəqəmsal transformasiyanın dəstəklənməsi, onlara maliyyə dəstəyi mexanizmlərinin göstərilməsi, ələlxüsus da, startapların və tədqiqat mərkəzlərinin sənaye ilə əlaqələndirilməsi məqsədilə vahid rəqəmsal ekosistemin yaradılması nəzərdə tutulur. Motivasiya tədbirləri çərçivəsində rəqəmsal startapların sayı 250-yə, rəqəmsal transformasiya proqramlarında iştirak edən müəssisələrin sayı 300-ə çatdırılacaq.

Həmçinin, xarici investorlarla əlaqələr də yeni müstəvidə təşkil olunacaq, xarici investisiyaların cəlbi və innovasiya mühitinin yaxşılaşdırılması məqsədilə prosedurların sadələşdirilməsi, əlverişli investisiya ekosisteminin gücləndirilməsi, ÜDM-də özəl xarici maliyyələşmənin payının davamlı artırılması və rəqəmsal ticarətin inkişafı və yerli müəssisələrin xarici bazarlara çıxışı üçün beynəlxalq e-ticarət platformaları "Amazon", "AliExpress"  ilə əməkdaşlığın genişləndirilməsi də strateji hədəf istiqamətlərində yer alır.

***E.CƏFƏRLİ***



## Milli Məclisin iclasında...

# Millət vəkilləri 9 qanun layihəsini qəbul ediblər

*Nardar BAYRAMLI*

Dekabrın 26-da Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 9 məsələ daxil edilib.

Əvvəlcə əmək qanunvericiliyinə nəzərdə tutulan dəyişikliklər üçüncü oxunuşda müzakirə olunub. Bildirilib ki, layihə 18 qanun üzrə 178 maddədə 457 dəyişikliyi ehtiva edir. Dəyişikliklərin əksəriyyəti Əmək Məcəlləsinə aiddir, digər 17 qanuna təklif edilən dəyişikliklər isə Əmək Məcəlləsində nəzərdə tutulan dəyişikliklər çərçivəsində hazırlanıb, uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıyır. Layihə yerli əmək münasibətlərinin spesifikası nəzərə alınmaqla beynəlxalq əmək normalarının milli qanunvericiliyə implementasiyası, bu sahədə elektron sistemlərin tətbiqi ilə əlaqədar yeni qaydaların təsbiti, eləcə də ötən dövr ərzində əmək qanunvericiliyində aşkar edilmiş boşluqların aradan qaldırılması məqsədilə hazırlanıb.

Müzakirələrdən sonra layihə qəbul edilib.

Sonra “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) qəbul olunub. Qeyd edilib ki, qanun layihəsinin əsas məqsədi ictimai mənəviyyatı qorumaq, xüsusilə yeniyetmə və gəncləri sosial şəbəkələrdə yayılan zərərli və qeyri-etik informasiyadan müdafiə etmək, həmçinin internet mühitində məsuliyyət mexanizmlərini dəqiqləşdirərək mövcud qanunvericiliyi təkmilləşdirməkdir.

Bu məqsədlə qanunun 13-cü maddəsinə 13-2.3.6-1. bəndi əlavə olunur. Düzəlişdə deyilir ki, kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatların yayılması qadağan edilir. Vurğulanıb ki, layihə mənəvi dəyərlərin qorunmasını təmin etmək, yeniyetmə və gənclərin zərərli informasiyadan qorumaq, bu növ informasiyaların yayılmasını önləmək zərurətindən irəli gələrək hazırlanıb.

Növbəti məsələ olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı bildirilib ki, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər çox genişdir və bir neçə sahəni əhatə edir. Dəyişikliklərin bir qismi xüsusi icra məmurları ilə bağlı qəbul edilən qanuna uyğunlaşdırma xarakteri daşıyır. Bir sıra maddələrdə icra məmuru sözünün dövlət icra məmuru sözləri ilə əvəz edilməsi təklif edilir. Digər istiqamət isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin müvafiq normaların təsirindən kənarda qalmaması, əmək müqaviləsi ilə işləyən işçilərin hüquqlarının daha yaxşı qorunması, velosiped, moped və başqa oxşar nəqliyyat vasitələrini idarə edən şəxslərin təhlükəsizliyini daha səmərəli təmin etmək yönündədir. Bir hissə maliyyə, enerji resursları sahəsində şəxslərin məsuliyyətli davranışını, vəkil adından qanunsuz istifadənin yolverilməzliyini təmin etməklə bağlıdır. Eləcə də qanun layihəsində əkin yerinin yandırılması ilə müəyyən edilmiş inzibati xətanın çəkindirici xarakterinin gücləndirilməsi də təklif olunub.

Dəyişikliklər sırasında sosial şəbəkələrdə ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıq hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə görə yeni inzibati xətanın müəyyən edilməsi də nəzərdə tutulur.

Sonra Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Mədəniyyət haqqında” qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi müzakirə edilib. Bildirilib ki, ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilmiş qanun layihəsi konseptual baxımdan mədəni sərvətlərin qorunması sahəsində hüququ müəyyənlik prinsipinin ardıcıl formada həyata keçirilməsini və mövcud hüquqi mexanizmlərin təkmilləşdirilməsini nəzərdə tutur. Qeyd edilib ki, dövlətimiz tərəfindən mədəni irsin bərpası və mühafizəsinə yönəlmiş genişmiqyaslı siyasətin və xüsusilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işləri kontekstində bir sıra hüquqi addımların atılması böyük əhəmiyyət kəsb edir.

Diqqətə çatdırılıb ki, qanun layihəsində mədəni sərvətlərin qorunması ilə bağlı müddəaların dəqiqləşdirilməsi və məsuliyyətin artırılması nəzərdə tutulub. Sənəd, həmçinin mədəni sərvətlərin korlanması və ya məhv edilməsi əməllərinə görə məsuliyyəti, ziyanın miqdarı və təqsirin formasına görə fərqləndirməyi hədəfləyir. Dəyişikliklərə əsasən, hüquqi şəxslər də mədəni sərvətləri qəsdən korlama və ya məhv etməyə, habelə mədəni sərvətləri ehtiyatsızlıqdan məhv etməyə görə cinayət-hüquqi məsuliyyətə cəlb ediləcəklər. Bundan əlavə, inşaat və digər təsərrüfat işləri görülərkən tarix və ya mədəniyyət abidəsi aşkar edildikdə dərhal işlərin dayandırılaraq, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana məlumat verilməməsi inzibati xəta hesab ediləcək.

Sənəddə, həmçinin “Mədəniyyət haqqında” Qanuna “mədəni sərvətləri korlama” və “mədəni sərvətləri məhvetmə” anlayışlarının hüquqi tərifləri əlavə olunur. Qanun layihəsində mədəni sərvətlərin mühafizə dərəcəsindən asılı olmayaraq, onların korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağan edilir.

Sonra “Notariat haqqında” və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanunlarda dəyişiklik edilməsi barədə layihə (ikinci oxunuş) qəbul edilib. Bildirilib ki, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanuna təklif edilən dəyişikliklərə əsasən kommersiya hüquqi şəxsləri üzrə nizamnamə kapitalındakı payın özgəninkiləşdirilməsi ilə bağlı müqavilələr, nizamnamə kapitalındakı payın vərəsəlik qaydasında digər şəxsə keçməsi, yüklü edilməsi, təsisçisi və qanuni təmsilçisi eyni şəxs olan kommersiya hüquqi şəxsin təsisçisi öldükdə notariat orqanı tərəfindən mirasın qorunması üçün tədbirlər çərçivəsində əmlak idarəçisinin təyin olunması ilə əlaqədar məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində bir subyektdən digər subyektə ötürülməsinə dair hüquqi əsasları müəyyən edir.

Digər dəyişiklik kommersiya hüquqi şəxslərin, xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının öz təsis sənədlərində və qeydə alınmış faktlarda dəyişiklər barədə hesabatının təqvim ili bitdikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim edilməsini nəzərdə tutur. Bu dəyişikliklər təsis sənədlərində yenilənən hər hansı məlumatın hesabat formasında müvafiq orqana təqdim edilməsinin zəruriliyinə əsaslanır.

“Notariat haqqında” Qanuna təklif edilən dəyişikliklər isə yuxarıda qeyd olunan bir sıra məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana ötürülməsinin zəruriliyinə dair hüquqi əsasları müəyyən edir.

Müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Qeyd edək ki, millət vəkilləri iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

# Sığorta bazarı böyüsə də, xidmət aşağıdır

2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycandakı 16 sığorta şirkətinin xətti ilə 1 milyard 365,354 milyon manat sığorta haqqı toplanılıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 11,7 faiz çoxdur. Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 844,833 milyon manat təşkil edib ki, bu da illik müqayisədə 21,7 artım deməkdir. 11 ay ərzində sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 61,9 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə isə bu göstərici 56,8 manat olub. Yəni, bu o deməkdir ki, sığorta şirkətləri yığdığı pulun hər 1 manatının təxminən 62 qəpiyini xərcləyib, qalan 38 qəpiyini özlərinin balansında mənfəət kimi saxlamaqdadır. Bu isə olduqca böyük həcmdə mənfəət deməkdir, sığorta kapitalının təxminən 40 faizi onların xalis pul aktivi kimi sərəncamında qalır.

## Könüllü sığortadan 1 milyard 34 milyon manat toplanıb

Mərkəzi Bankın hesabatına əsasən, ötən 11 ayda ümumi sığorta yığımlarında könüllü sığortanın payı daha çox artımla müşayiət edilib. Belə ki, könüllü sığorta yığımları 1 milyard 34 milyon 15 min manat təşkil edib və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 121 milyon 457 min manat və ya 13,3 faiz çox vəsait toplanıb. Nəticədə ölkə üzrə toplam sığorta yığımlarının təqribən 75 faizi könüllü sığorta portfelinin payına düşüb. Yeri gəlmişkən, könüllü sığortadan əldə edilən vəsaitin 713 milyon 141 min manatı xərclənib, yerdə qalan 320 milyon manatı və yaxud 30,5 faizi şirkətlərin özünün hesabında qalıb.

Ümumilikdə, son illərdə könüllü həyat, fərdi qəza və xəstəlik sığortası üzrə yığımlar və ödənişlərdə daha çox artım müşahidə edilib. Avtomobil, daşınmaz əmlak üzrə, işçilərin peşə fəaliyyəti ilə bağlı olan icbari sığortada olan yığımlarda artımlar olsa da, könüllü sığorta yığımlarından geri qalır. Bu da onu təsdiqləyir ki, adından da göründüyü kimi insanlar məcburi və ya inzibati üsullara yox, azad seçimə, könüllülüyə daha çox üstünlük verirlər. Onlar könüllü olaraq, həyatlarını, sağlamlıqlarını, daşınar və daşınmaz əmlakını, yaxud digər mal və xidmətləri sığortalamaq üçün seçimlər əsasında qərar verirlər.

## Həyatın yaşam sığortasından 636 milyon manat toplanıb

Yeri gəlmişkən, qeyd edilən dövrdə həyat yaşamı üzrə sığorta yığımlarının həcmi 636 milyon 877 min manata bərabər olub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 16,7 faiz və ya 91 milyon 270 min manat çoxdur. 2024-cü ilin yanvar-noyabr aylarında həyat sığorta şirkətləri 545 milyon 607 min manat sığorta haqqı toplaya bilmişdisə, cari ilin ötən dövründə yaşam sığortasının həyat sığortasındakı bazar payı əhəmiyyətli dərəcədə yüksəlib. Həyatın yaşam sığortası üzrə ödənişlərdə də artım qeydə alınıb. Sığorta şirkətləri tərəfindən bu sığorta istiqaməti üzrə ödənişləri 585 milyon 86 min manat təşkil edib. Bu, o deməkdir ki, sözügedən sığorta növü üzrə toplanmış hər 100 manatın təxminən 92 qəpiyi sığortaolunanların özlərinə xəclənib. Bu, digər sığorta növləri ilə müqayisədə ən yüksək ödəniş və ən yaxşı sığorta xidməti sayıla bilər.

Xatırladaq ki, həyatın yaşam sığortası yığımları adətən 3-5 illik dövrü əhatə edir. Əməkhaqqının bir hissəsini hər ay həyatın yaşam sığortasına yönəldən işçilər müqavilənin sonunda əlavə edilmiş faizlə yanaşı, hər ay ödənilməli olan vergi və sosial sığorta ödənişlərini geri ala bilirlər.



## Nəqliyyat sığortası üzrə yığılan hər 100 manatın 70 manatı xərclənib

Ümumilikdə, sığorta üzrə rəqəmlər onu göstərir ki, Azərbaycanda sığorta bazarı son illərdə əhəmiyyətli dərəcədə böyüyüb, sığorta sektorunun toplam illik gəlirləri 1 milyard manatı ötüb. Ancaq buna baxmayaraq, sığorta şirkətlərinin təqdim etdiyi xidmət çeşidlərində ciddi dönüş müşayiət olunmur, müştərilərə xidmətin keyfiyyəti daha da aşağı düşür, yeni xidmət alətləri tətbiq olunmur. Bir çox hallarda vətəndaşlara dəymiş zərər zamanı (sığorta hadisəsi) sığorta haqqı ödənilmir.

Ötən 11 ay ərzində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə yığımlar və ödənişlərin həcmində də böyümə baş verib, bu növ sığorta üzrə yığımlar 165 milyon 605 min manat təşkil edib ki, göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11 milyon 432 min manat və ya 7,4 faiz çoxdur. 2024-cü ilin eyni dövründə bu göstərici 154 milyon 173 min manat təşkil edib. Yanvar-noyabr aylarında sığorta şirkətlərinin avtonəqliyyat vasitəsi sahiblərinə ödədiyi sığorta pulunun həcmi isə 123 milyon 690 min manat təşkil edib. Yəni təkcə bu sığorta növü üzrə yığılmış 165 milyon manatın 123 milyon manatı qeyd edilən sahəyə xərclənib, qalan 42 milyon manat isə sığorta şirkətlərinin xalis gəliri kimi özlərində qalıb. Daha doğrusu, sığorta şirkətləri avtomobil sahiblərindən topladığı sığorta haqqının təxminən 70 faizini xərcləyib, 30 faizini öz xəzinələrində saxlayıb. Bu göstəricilər ona dələlət edir ki, sığorta şirkətlərinin hesablarında qalan 42 milyon manat vəsaitin müəyyən bir hissəsi hesabına məhkəmə müstəvisinə qədər gedib çıxan avtonəqliyyat sığortası üzrə problemləri də həll etmək mümkündür. Sadəcə, bəzi şirkətlər öz mənfəətləri naminə bu istiqamətdə yetərli pul xərcləmək istəmir.

## Müştərilərin böyük qismi məmnun deyil

Bir məqamı da vurğulamaq lazımdır ki, sığorta sektorunun böyüməsi və yığım kanallarının genişlənməsinə baxmayaraq, xidmət çeşidləri, operativlik və əlçatanlıq, müştəri məmnuniyyəti, sığorta mədəniyyəti hələ də lazımi səviyyədə deyil. Bunun da əsas səbəblərindən biri əhalinin sığorta hadisəsi baş verdiyi zaman, şirkət tərəfindən ödənişlə bağlı məsuliyyətsizlik və intizamsızlıq halları, hadisənin təsdiq olunması və aktlaşdırılması üçün gərəksiz əlavə sənədlərin tələb olunmasıdır. Əlbəxsus da sığorta şirkəti tərəfindən sənədlərin yığılaraq gec təqdim olunması və sığorta hadisəsinə maddi təminat verilməsində yubanmalar xidmətin keyfiyyətinin aşağı səviyyədə olmasına dələlət edir. Nəticədə müştərilərin sığorta şirkətlərinə inamsızlığı yaranır.

Bütün bunlar sığorta şirkətlərinin yığıma xüsusi həvəs və motivasiya ilə yanaşdığı kimi müştəri məmnunluğuna xüsusi diqqət ayırmasını zəruri edir. “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası”nda əsas prioritetlərdən biri kimi sığorta sektorunun dayanıqlığının gücləndirilməsi nəzərdə tutulub. Ona görə də, müvafiq qurumlar sığortanın əsas fəlsəfəsi olan sığorta hadisəsinə adekvat və çevik, tam həcmdə xidmətin təşkilinə nəzarət artırmalıdır.

*ELBRUS CƏFƏRLİ*

# “3+3” yenidən gündəmdə...

## Səmimi əməkdaşlıq, normal qonşuluq münasibətləri və qarşılıqlı hörmət tərəfdaşlıq platformalarını reallığa çevirə bilər

Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi qələbə fonunda Bakı sülh təşəbbüslərinin əsas müəllifi kimi çıxış edərək bölgədə əməkdaşlıq perspektivlərinin pozitiv istiqamətdə inkişafına güclü təkan verib. Azərbaycan regionda qarşıdurma deyil, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modellərini irəli sürərək uzunmüddətli sabitliyin təmin olunmasına çalışır. Bu kontekstdə irəli sürdüyümüz nəqliyyat, logistika və iqtisadi inteqrasiya təşəbbüsləri xüsusi əhəmiyyət daşıyır. Orta Dəhlizin şaxələndirilməsi, Zəngəzur dəhlizinin (TRİPP) aktiv fəaliyyətə başlaması istiqamətində atılan addımlar, Şərq - Qərb və Şimal -Cənub nəqliyyat xətlərinin daha da gücləndirilməsi Avrasiyanın yeni iqtisadi xəritəsinin formalaşmasına real zəmin yaradır. Bu layihələr təkcə Azərbaycanın deyil, bütövlükdə region ölkələrinin iqtisadi maraqlarına xidmət edən strateji platformalar kimi çıxış edir.

Postmüharibə dövründə Azərbaycanın təşəbbüsü ilə gündəmə gətirilən 3+3 regional əməkdaşlıq formatı da bölgənin gələcəyi baxımından mühüm əhəmiyyət kəsb edir. Səmimi əməkdaşlıq, normal qonşuluq münasibətləri və qarşılıqlı hörmət prinsipləri əsasında bu formatın uğurlu mexanizmə çevrilməsi mümkündür. Nəticə etibarilə formalaşacaq əməkdaşlıq mühiti Cənubi Qafqazda rifahın, təhlükəsizliyin və davamlı inkişafın əsas təminatçısına çevrilə bilər.

### Nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması...

Azərbaycanın səyi ilə Cənubi Qafqazın stabil və sabit ünvan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması bütövlükdə region üçün yeni perspektiv deməkdir. Azərbaycanın yürütdüyü siyasətin hədəfi məhz budur - əsas prioritetimiz geniş bir coğrafiyaya yeni inkişaf tempi qazandırmaqdır. Sülhün imzalanmasına bir addım qalmış Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan yeni iqtisadi-siyasi güc mərkəzinin formalaşdırılması üçün əməkdaşlıq platforması təklif edir, bu yolda ortaya çıxan maneələri aradan qaldırmaq üçün bütün diplomatik, iqtisadi, siyasi rıçaqlarından istifadə edir. Qeyd edildiyi kimi, “3+3” formatı kimi müəyyənləşdirilən, Azərbaycan ilə Türkiyənin təşəbbüsü ilə həyata keçirilən platforma da özündə regional əməkdaşlıqların möhkəmləndirilməsini əks etdirməkdədir.

Yeri gəlmişkən, Rusiya XİN-in nümayəndəsi Mariya Zaxarova bildirib ki, rəsmi Moskva Azərbaycanla Ermənistan arasındakı dialoqda müsbət dinamika, eləcə də region daxilində əlaqələrin bərpası və qurulması istiqamətində perspektivlər görür. O, Rusiya tərəfinin nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması prosesinin başlanmasını alqışladığını vurğulayıb. Mariya Zaxarova Rusiyaya məxsus taxılın Azərbaycan ərazisindən tranzit yolu ilə keçməklə Ermənistana tədarükünü qeyd edərək, bunun regional “3+3” əməkdaşlıq formatının inkişafının aktuallığını təsdiqlədiyini bildirib. O, həmçinin Moskvanın bu platformanın iclaslarında gürcü həmkarlarını da iştirakçılar arasında görmək istədiyini qeyd edib.




### Regional əməkdaşlıq platforması...

Qeyd edək ki, “3+3” formatında ilk iclas Gürcüstanın iştirakı olmadan xarici işlər nazirlərinin müavinləri səviyyəsindən 2021-ci il 10 dekabr tarixində Moskvada keçirilmişdi. Sonrakı tədbir isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşıb. Moskva toplantısında iqtisadiyyat, energetika, ticarət, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, təbii ehtiyatlar, təhsil, mədəniyyət, turizm kimi sahələr üzrə əməkdaşlığın perspektivi nəzərdən keçirilmişdisə, Tehranda baş tutan beştərəfli görüşdə regional kommunikasiya məsələsi də müzakirə predmetinə çevrilmişdi. Bu formatda növbəti görüş isə ötən ilin oktyabrında Türkiyədə baş tutdu. Bu ilin yayında isə Ermənistan “3+3” formatında nazirlərin növbəti görüşünü keçirməyə hazır olduğunu bəyan edib.

Vurğulayaq ki, bu formatın missiyası iqtisadi əməkdaşlıq platforması təşkil etmək, bütövlükdə bölgənin maraqlarını özündə ehtiva edən addımların atılmasını təşviq etməkdir. Regionda iqtisadi münasibətlərin inkişafı və əməkdaşlığın möhkəmləndirilməsi üçün ən vacib şərtlərdən biri məhz Ermənistanın öz qonşuları ilə münasibətlərini sülh və ədalət çərçivəsində qurmasına əsaslanır.

***SADİQ***

# Zəmanətsiz zəmanətlər: Ukraynanı qoruyan sənəd varmı, yoxsa yalnız illüziya?

Ukrayna məsələsində “təhlükəsizlik zəmanətləri” anlayışının bu qədər tez-tez səslənməsi onun real məzmununun mövcudluğundan yox, əksinə, məhz həmin məzmunun olmamasından xəbər verir. Beynəlxalq diplomatiyada adətən hansısa termin nə qədər çox təkrarlanırsa, bir o qədər də onun ətrafında konsensusun, dəqiq hüquqi çərçivənin və icra mexanizminin olmadığını göstərir. Ukrayna nümunəsində də eyni mənzərə formalaşıb: təhlükəsizlik zəmanətləri siyasi ritorikanın mərkəzinə çəkilib, lakin bu ritorikanın arxasında duran hüquqi konstruksiyalar son dərəcə zəif və etibarsızdır.

Formal olaraq müxtəlif variantlar irəli sürülür. NATO üzvlüyü perspektivi, Vaşinqton müqaviləsinin beşinci maddəsinə “oxşar” mexanizmlər, ikitərəfli təhlükəsizlik sazişləri, eləcə də “strateji tərəfdaşlıq” statusu bu siyahıya daxildir. Ancaq beynəlxalq hüquq prizmasından baxdıqda bu formatların heç biri Ukrayna üçün avtomatik və şərtsiz kollektiv müdafiə öhdəliyi yaratmır. NATO üzvlüyü istisna olunmaqla digər bütün mexanizmlər hüquqi baxımdan ya qeyri-müəyyən, ya da sırf siyasi xarakter daşıyır. Hətta NATO-nun özü belə, çox zaman təqdim edildiyi kimi, “mexaniki müdaxilə maşını” deyil; onun kollektiv müdafiə mexanizmi belə üzv dövlətlərin siyasi qərarına, milli qanunvericiliyinə və strateji maraqlarına bağlıdır. Bu isə Ukrayna üçün təklif olunan alternativ modellərin niyə daha da zəif olduğunu açıq şəkildə göstərir.

Məsələnin kökündə beynəlxalq hüququn struktur məhdudiyyətləri dayanır. Təhlükəsizlik zəmanəti anlayışı beynəlxalq hüquqda universal, hamı üçün eyni qaydada işləyən normativ mexanizm deyil. O, erga omnes xarakter daşımır və dövlətləri avtomatik şəkildə hərbi müdaxiləyə məcbur etmir. Əksinə, təhlükəsizlik zəmanətləri suveren dövlətlərin siyasi iradəsinin məhsuludur və bu iradə milli maraqların, daxili siyasi balansın və regional güc nisbətlərinin təsiri altında formalaşır. Bu baxımdan təhlükəsizlik zəmanəti hüquqi normadan çox siyasi öhdəlikdir və bu öhdəliyin icrası heç vaxt mütləq xarakter daşımır.

Beynəlxalq münasibətlər praktikasında bu, xüsusilə aşkar görünür. Dövlətlər təhlükəsizlik zəmanəti verərkən faktiki olaraq öz üzərlərinə risk götürüb-götürmədiklərini ölçüb-biçirlər. Hərbi müdaxilə ehtimalı artdıqca zəmanətin hüquqi mətnində qeyri-müəyyənlik də artır: “yardım edəcəyik”, “dəstək göstərəcəyik”, “zəruri tədbirlər görəcəyik” kimi ifadələr məhz bu riskdən yayınma mexanizmləridir. Ukrayna üçün təklif olunan zəmanət modellərində də eyni dil və eyni məntiq hökm sürür. Hüquqi terminologiyadan istifadə edilir, lakin bu terminlər konkret icra mexanizmi ilə müşayiət olunmur.

Bu səbəbdən, Ukrayna üçün nəzərdə tutulan “təhlükəsizlik zəmanətləri” faktiki olaraq real təhlükəsizlik arxitekturası yaratmır. Onlar nə çəkindirmə (deterrence) funksiyasını tam yerinə yetirir, nə də kollektiv müdafiə mexanizmi formalaşdırır. Əvəzində bu zəmanətlər diplomatik boşluğu doldurur, siyasi məsuliyyəti təxirə salır və beynəlxalq ictimaiyyətə fəaliyyət görüntüsü yaradır. Başqa sözlə, burada hüquqi təminatdan çox psixoloji və siyasi təsəlli mexanizmi işləyir. Nəticə etibarilə beynəlxalq hüquqda təhlükəsizlik zəmanətlərinin nisbi xarakteri Ukrayna məsələsində bütün çılpaqlığı ilə üzə çıxır. Zəmanətlər nə qədər pafoslu ifadələrlə təqdim edilsə də, onların real dəyəri yalnız bir sualla ölçülür: bu zəmanəti verən dövlətlər faktiki hərbi riskə getməyə hazırdırmı? Bu suala aydın cavab olmadığı müddətdə Ukrayna üçün səslənən bütün təhlükəsizlik zəmanətləri hüquqi mexanizmdən çox diplomatik illüziya olaraq qalacaq.

Beynəlxalq hüquqda “təhlükəsizlik zəmanəti” anlayışı ilk baxışdan aydın və birmənalı təsir bağışlasa da, əslində, son dərəcə mürəkkəb və çoxqatlı hüquqi-siyasi konstruksiyadır. Burada əsas sual bundan ibarətdir: zəmanət hüquqi baxımdan icrası məcburi olan öhdəlikdirmi, yoxsa siyasi şəraitdən asılı olaraq dəyişən niyyət bəyanatıdır? Məhz bu sual Ukrayna ətrafında aparılan müzakirələrin mərkəzində dayanır, problemin mahiyyətini açır. Təhlükəsizlik zəmanətləri yalnız o halda real və işlək mexanizmə çevrilə bilər ki, onlar dövlətlər arasında bağlanmış beynəlxalq müqavilə statusuna malik olsun, yəni treaty obligation kimi tanınsın. Belə müqavilələrdə öhdəliklərin predmeti, həcmi, icra şərtləri və mümkün pozuntu hallarına görə məsuliyyət mexanizmləri dəqiq müəyyən edilməlidir. Əks halda, sənəd hüquqi aktdan çox siyasi deklarasiya xarakteri daşıyacaq. Ukrayna üçün müzakirə olunan təhlükəsizlik zəmanətlərinin əksəriyyəti məhz bu ikinci kateqoriyaya - siyasi öhdəliklərə aiddir.



Tez-tez istinad edilən NATO-nun Vaşinqton müqaviləsinin 5-ci maddəsi də çox vaxt yanlış interpretasiya olunur. Maddə üzv dövlətlərdən birinə qarşı silahlı hücumu alyansın bütün üzvlərinə qarşı hücum kimi tanıyır, lakin eyni zamanda cavab tədbirlərinin məzmununu açıq saxlayır. Hüquqi mətn üzv dövlətləri avtomatik şəkildə hərbi qüvvə tətbiqinə məcbur etmir; əksinə, hər bir dövlətə cavab tədbirinin formasını öz konstitusion prosedurlarına və milli qərar qəbuletmə mexanizmlərinə uyğun müəyyənləşdirmək hüququ verir. Bu isə o deməkdir ki, NATO-nun kollektiv müdafiə mexanizmi belə mütləq və mexaniki xarakter daşımır. Bu hüquqi incəlik NATO-nun özünün də “mütləq təhlükəsizlik zəmanəti” olmadığını göstərir. Alyans daxilində kollektiv müdafiə yalnız hüquqi norma ilə deyil, siyasi konsensus, strateji maraqların uzlaşdırılması və risklərin bölüşdürülməsi əsasında işləyir. Yəni hüquqi öhdəlik siyasi iradə ilə dəstəklənmədikdə faktiki təsir gücünü itirə bilər. Tarixi presedentlər göstərir ki, NATO daxilində təhlükəsizlik məsələləri bəzən uzun siyasi müzakirələr və kompromislər tələb edir.

Tarixi presedentlər beynəlxalq təhlükəsizlik zəmanətlərinin mahiyyətini romantik təsəvvürlərdən tamamilə ayırır və onu real güc siyasətinin sərt çərçivəsinə salır. Dövlətlərarası münasibətlər tarixində təhlükəsizlik zəmanətləri heç vaxt abstrakt hüquqi kateqoriya kimi işləməyib; onlar həmişə konkret maraqların, risk hesablamalarının və siyasi iradənin məhsulu olub. Məhz bu səbəbdən hüquqi sənədlərin mətnindən daha çox onları imzalayan dövlətlərin hansı situasiyada və nəyin bahasına hərəkət etməyə hazır olması həlledici rol oynayıb.

Birinci Dünya müharibəsi ərəfəsində Antanta çərçivəsində mövcud olan qeyri-rəsmi və yarımrəsmi öhdəliklər buna klassik nümunədir. Böyük Britaniyanın Fransa və Rusiya qarşısında formal hərbi öhdəlikləri məhdud idi, lakin uzunmüddətli strateji maraqlar, Almaniyanın güclənməsi qorxusu və hərbi planlaşdırmanın dərin inteqrasiyası Londonu faktiki olaraq müharibəyə sürüklədi. Burada hüquqi mətnlərdən çox formalaşmış siyasi reallıq və qarşılıqlı gözləntilər həlledici oldu. Yəni təhlükəsizlik zəmanəti kağız üzərində olmasa belə, siyasi iradə formalaşdığı üçün işə düşdü.

Koreya müharibəsi isə əks istiqamətli presedenti nümayiş etdirir. Münaqişədən az əvvəl ABŞ administrasiyası açıq şəkildə bəyan edirdi ki, Koreya yarımadası Amerika təhlükəsizlik perimetri daxilində deyil. Bu bəyanat hüquqi baxımdan heç bir öhdəlik yaratmırdı, lakin siyasi siqnal idi. Müharibə başlayanda isə Vaşinqtonun mövqeyi kəskin şəkildə dəyişdi. Burada da hüquqi zəmanət yox idi, lakin daxili siyasi təzyiqlər, geosiyasi balans və “domino effekti” qorxusu müdaxilə qərarını şərtləndirdi. Bu presedent göstərir ki, zəmanət bəzən əvvəl olmur, amma siyasi iradə yarandıqda sonradan formalaşır.

Yuqoslaviya böhranı zamanı NATO-nun davranışı isə selektiv müdaxilənin bariz nümunəsidir. Alyans humanitar fəlakət, insan hüquqlarının pozulması və regional sabitlik arqumentləri ilə hərəkət etsə də, reaksiyanın intensivliyi və forması konkret siyasi kontekstə uyğun dəyişirdi. Eyni hüquqi prinsiplər - mülki əhalinin müdafiəsi, güc tətbiqinin məhdudlaşdırılması - müxtəlif bölgələrdə fərqli nəticələr doğurdu. Bu isə bir daha sübut etdi ki, beynəlxalq təhlükəsizlik sistemində hüquqi norma sabitdir, onun tətbiqi isə dəyişkən.

Məhz bu presedentlər fonunda Ukrayna üçün təhlükəsizlik zəmanətləri məsələsi daha sərt və fundamental sualla üz-üzə qalır: risk kimə məxsusdur? Təhlükəsizlik zəmanəti verən dövlətlər Ukrayna naminə hərbi eskalasiyaya, birbaşa qarşıdurmaya və potensial itkilərə hazırdırmı? Əgər bu risk onlar üçün qəbulolunmazdırsa, zəmanət hüquqi sənəd kimi mənasını itirib diplomatik ritorikaya çevrilir. Çünki beynəlxalq hüquqda öhdəlik anlayışı risklə müşayiət olunmadıqda məzmunsuz formaya çevrilir.

Bu kontekstdə BMT Nizamnaməsinin 2-ci maddəsində təsbit olunmuş dövlətlərin suveren bərabərliyi və güc tətbiqinin qadağan olunması prinsipləri də nəzəri norma səviyyəsində qalır. Praktikada bu prinsiplər böyük güclər tərəfindən situativ və seçici şəkildə şərh olunur. Müdaxilə “humanitar zərurət”, “kollektiv müdafiə” və ya “regional sabitlik” adı altında əsaslandırıldıqda legitim sayılır, lakin eyni arqumentlər başqa kontekstdə görməzliyə vurulur. Ukrayna üçün təhlükəsizlik zəmanətləri də bu selektiv hüquqi tətbiqin obyektinə çevrilib. Nəticədə paradoksal vəziyyət yaranır: hüquqi baxımdan Ukraynanın suverenliyi və ərazi bütövlüyü tanınır, siyasi bəyanatlarda müdafiə vədləri verilir, lakin real güc tətbiqi ehtimalı qəsdən qeyri-müəyyən saxlanılır. Bu qeyri-müəyyənlik isə təsadüfi deyil; o, zəmanəti verən tərəflərə manevr imkanı yaradır, riskin əsas yükünü isə Ukraynanın üzərinə qoyur. Beləliklə, tarixi presedentlər bir daha göstərir ki, beynəlxalq təhlükəsizlik zəmanətlərinin taleyini hüquqi formullar yox, siyasi iradənin sərhədləri müəyyən edir.

### Real zəmanət haradadır? Kağız üzərində vədlərdən güc arxitekturasına

Məsələyə soyuq məntiq və sərt beynəlxalq hüquq prizmasından yanaşanda acı bir həqiqət üzə çıxır: Ukrayna üçün real təhlükəsizlik zəmanəti bu gün yalnız iki mənbədən qaynaqlana bilər, üçüncü yol yoxdur. Birincisi, formal hərbi-siyasi alyans üzvlüyü və bunun doğurduğu collective defence obligation, yəni hüquqi baxımdan məcburi kollektiv müdafiə mexanizmi. İkincisi isə regional və qlobal güc balansının elə şəkildə dəyişməsi ki, potensial təhdidlərin qiyməti deterrence by denial və deterrence by punishment prinsipləri çərçivəsində qəbuledilməz səviyyəyə yüksəlsin. Hər iki variant uzunmüddətli, mürəkkəb, riskli və ciddi siyasi iradə tələb edən yoldur.

Mövcud “təhlükəsizlik zəmanətləri” paketləri isə bu iki strateji oxun heç birini təmin etmir. Onlar nə treaty-based collective security yaradır, nə də real çəkindirmə mexanizmi formalaşdırır. Hüquqi terminlə desək, burada nə hard security guarantee var, nə də enforcement mechanism. Nəticədə Ukrayna beynəlxalq təhlükəsizlik arxitekturasında təhlükəli bir “boşluq zonası”nda qalır: nə tam müdafiə olunmuş subyektdir, nə də hüquqi baxımdan neytral statusa malikdir. Bu isə beynəlxalq hüquqda ən riskli vəziyyətlərdən biridir, çünki security vacuum həmişə eskalasiya üçün münbit zəmin yaradır.

Bu kontekstdə “təhlükəsizlik zəmanətləri” anlayışı Ukrayna üçün strateji reallıqdan çox siyasi illüziya təsiri bağışlayır. Lex lata - yəni mövcud beynəlxalq hüquq Ukraynaya avtomatik kollektiv müdafiə vəd etmir. Lex desiderata - arzuolunan hüquq isə hələ kağız üzərində belə tam formalaşmayıb. Bu iki anlayış arasında yaranmış dərin uçurum pafoslu bəyanatlarla, sammit qərarları ilə və diplomatik ritorika ilə doldurulmur, bu boşluq yalnız real güc balansının dəyişməsi və hüquqi statusun yenidən müəyyənləşdirilməsi ilə aradan qalxa bilər.

Məhz bu nöqtədə regionun real güc aktorları ön plana çıxır. NATO-nun tamhüquqlu üzvü, regionda hard power və soft power elementlərini birləşdirən nadir dövlətlərdən biri kimi Türkiyə təhlükəsizlik məsələsində abstrakt bəyanatlarla deyil, real hərbi-siyasi imkanlarla danışa bilən dövlətdir. Türkiyə həm alyans daxilində hüquqi-subyektiv statusa malikdir, həm də Qara dəniz, Cənubi Qafqaz və Şərqi Avropa kəsişməsində strateji çəkisi olan aktordur. Bu baxımdan Türkiyənin iştirak etdiyi istənilən təhlükəsizlik modeli artıq siyasi niyyət deyil, credible security commitment səviyyəsinə qalxır.

Lakin təhlükəsizlik yalnız tank və raketlə ölçülmür. Müasir beynəlxalq hüquqda energy security milli və regional təhlükəsizliyin ayrılmaz tərkib hissəsi kimi tanınır. Ukraynanın Rusiya enerji resurslarından asılılığı onun suveren qərarvermə imkanlarını sistemli şəkildə zəiflədən amildir. Bu asılılıq aradan qaldırılmadan heç bir təhlükəsizlik zəmanəti tam ola bilməz. Enerji asılılığı olan dövlətin təhlükəsizlik zəmanəti kağız üzərində qalır, çünki economic coercion hər zaman hərbi təhdidi tamamlayır.

Bu nöqtədə Qafqazın lider dövləti olan Azərbaycan və onun uzaqgörən enerji diplomatiyası strateji əhəmiyyət kəsb edir. Azərbaycan nefti və qazı artıq təkcə iqtisadi resurs deyil, Avrasiyanın enerji təhlükəsizliyi arxitekturasının sütunlarından biridir. Xəzərdən Avropaya uzanan enerji dəhlizləri energy diversification, supply security və strategic autonomy prinsiplərinin real təcəssümüdür. Ukraynanın enerji təhlükəsizliyinin Rusiya asılılığından çıxarılması və alternativ mənbələrə - ilk növbədə Azərbaycan enerji resurslarına inteqrasiyası faktiki təhlükəsizlik zəmanətinə çevrilə bilər. Çünki enerji baxımından azad olmayan dövlət hüquqi baxımdan da tam müstəqil ola bilməz.

Avropada dərinləşən geosiyasi çalxalanmalar fonunda Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın balanslı, praqmatik və güc amilinə söykənən siyasəti ilə Azərbaycan lideri İlham Əliyevin strateji səbrə, hüquqa və uzunmüddətli maraqlara əsaslanan xətti həlledici rol oynaya bilər. Bu siyasətlər beynəlxalq hüququn formal normalarını real güc mexanizmləri ilə tamamlayan nadir nümunələrdəndir. Burada sovereign equality, non-intervention, collective security və energy sovereignty anlayışları abstrakt termin olmaqdan çıxıb, praktik strategiyaya çevrilir. Nəticə etibarilə Ukrayna üçün real təhlükəsizlik zəmanəti kağız üzərində yazılan qeyri-müəyyən formullar yox, hüquqi status, real güc balansı, enerji müstəqilliyi və regionun güclü aktorlarının məsuliyyətli liderliyi üzərində qurula bilər. Əks halda “təhlükəsizlik zəmanətləri” ifadəsi beynəlxalq hüquq leksikonunda deyil, siyasi illüziyalar lüğətində qalmağa məhkumdur.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Əlcəzairin ədalət istəyi, Fransanın hiddəti...

Əlcəzair parlamentinin Fransanın müstəmləkəçilik dövrünü cinayət kimi tanıyan qanun qəbul etməsi rəsmi Paris tərəfindən qəzəblə qarşılanıb. Fransanın xarici işlər naziri Jan-Noel Barro bəhs olunan qanuna münasibət bildirib və hiddətini gizlətməyib.

Belə ki, nazir bu sənədi "açıq-aşkar düşmən təşəbbüs" kimi qiymətləndirib. Fransa Xarici İşlər Nazirliyinin açıqlamasında vurğulanıb ki, bu addım Fransa-Əlcəzair dialoqunun bərpası və iki ölkə arasında tarixi yaddaşla bağlı məsələlərin sakit və konstruktiv müzakirəsi niyyəti ilə ziddiyyət təşkil edir.

## "1,5 milyon şəhid ölkəsi"

Hazırda kritik həddə çatan Əlcəzair-Fransa siyasi gərginliyinin səbəbləri tarixin dərin qatlarından, daha dəqiq ifadə etsək, Yelisey Sarayının bəhs olunan Afrika ölkəsində təxminən 130 il ərzində həyata keçirdiyi müstəmləkəçilik siyasətindən qaynaqlanır.

Fransanın müstəmləkəçilik siyasətinin təxminən 500 illik tarixi var. Bu ölkə istilalar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Ancaq Yelisey Sarayının Əlcəzairə münasibəti işğal etdiyi digər ərazilərdən tamam fərqli olub. Belə ki, bu ölkə hər nə qədər olsa da, digər ərazilərin müstəmləkə olduğunu qəbul edirdi. Əlcəzairə gəldikdə isə Yelisey Sarayı bu ölkəni Fransanın bir parçası sayırdı. Bu da Parisin Əlcəzairlə bağlı xəbis niyyətinin ifadəsi idi. Fransa bu ideyanı təşviq etməklə sərvətlərlə zəngin olan Əlcəzairdə sümürmə siyasətinə tam hüquqi əsaslar yaratmağa nail olmaq məqsədi güdürdü. Əgər bu ideya qəbul olunsa idi, şübhəsiz ki, heç kim Fransanı Əlcəzairdə törətdiyi əməllərə görə qınamayacaqdı, bunlar onun daxili işi sayılacaqdı.

Fransa Əlcəzairi 1830-cu ildə işğal altına alıb və qanlı izləri indi də qalan bu işğal 1962-ci ilədək davam edib.Yelisey Sarayının uzun zaman kəsiyini əhatə edən işğalçılıq siyasəti müqayisəyəgəlməz dərəcədə mürtəce səciyyə daşıması ilə fərqlənib. Sərvətlərin talanması, yerli əhalidən ucuz işçi qüvvəsi kimi istifadə edilməsi bir yana qalsın, aborigen sakinlərə qarşı məqsədli soyqırımı törədilib. Əlcəzair "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Bəli, Paris burada mövcudluğu dönəmində kütləvi qətliamlara əl atıb. 1832-ci ildə Əlcəzairin El-Uffia qəbiləsi gecə yatdığı yerdə qılıncdan keçirilib. Qadınlar və uşaqlar da daxil olmaqla 12 min adam öldürülüb. 1945-ci ildə Setif şəhərində 45 min əlcəzairli öldürülüb, həmçinin 5000-ə yaxın adam həbs olunub, habelə 99 nəfər edam, 64 nəfər ömürlük katorqa cəzalarına məhkum edilib. 1961-ci il oktyabrın 17-də on minlərlə əlcəzairli Fransa işğalını pisləmək üçün Parisdə nümayişə çıxıb. Fransa polisinin açdığı atəş və etirazçıların Sena çayına atılması nəticəsində 1500-ə qədər əlcəzairli həyatını itirib, mindən çox şəxs həbs olunub. Bu hadisə tarixə 'Sena qətliamı" kimi daxil olub. 2017-ci ildə Əlcəzairin insan hüquqlarının qorunması assosiasiyasının yaydığı hesabatda bildirilir ki, ümumilikdə bu ölkənin 10 milyon vətəndaşı Fransa müstəmləkəçiliyinin qurbanı olub.

Əlcəzairdə ikrah doğuran, qəddarlığı ilə heç bir ölçüyə sığmayan Fransa müstəmləkəçiliyinə aid daha bir neçə fakta diqqət yetirək:

- 1966-1996-cı illərdə Fransa Əlcəzairdə 210 dəfə nüvə sınağı həyata keçirib. Əlcəzair hökumətinin məlumatına əsasən, nüvə sınaqları zamanı 18 min hərbçi və mülki şəxsə ziyan dəyib. Nüvə sınaqlarından zərər çəkənlərin əksəriyyəti sonrakı bir neçə il ərzində həyatlarını itirib. 2010-cu ildə Fransada nüvə sınaqları qurbanlarına təzminatın ödənilməsi barədə qanun qəbul edilsə də, rəsmi Paris yalnız 20 nəfərə kompensasiya verib.
- İşğal altına aldığı Əlcəzair ərazisinə 5 milyondan artıq mina basdıran Fransa bu günə kimi həmin minaların xəritələrini qarşı tərəfə verməkdən imtina edir.
- Əlcəzair 1962-ci ildə müstəqillik qazananadək Fransa burada yerli xalqları həm də mədəni diskriminasiyaya məruz qoyub. Son araşdırmalar nəticəsində aşkarlanan faktlar heç bir tənqidə sığmır. Belə ki, qeyd olunan tarixədək Əlcəzairdə yerli əhalinin 98 faizi təhsildən kənarda qalıb.
- Ən həssas məsələlərdən biri insan kəllələri ilə bağlıdır. Bəli, Fransadakı İnsan muzeyində təxminən 18 min kəllədən ibarət xüsusi kolleksiya nümayiş etdirilir. Bu ölkənin hərbi-siyasi rəhbərliyi həm də müstəmləkə ölkələrində, o cümlədən də Əlcəzairdə məhv etdiyi insanların kəllələrini Parisə daşıyıb onları sərgiləməyi "qəhrəmanlıq tarixi" kimi dəyərləndirir. Bu isə artıq bir mənəviyyat məsələsidir.
- Mədəni sərvətlərin talanması və oğurlanması...




## Təzminat və üzr tələbi - Yelisey Sarayı bu dəfə məsuliyyətini boynuna alacaqmı?

Əlcəzairin Xalq Milli Assambleyası Fransanı hiddətləndirən qanunu dekabrın 24-də yekdilliklə qəbul edib. Təxminən 30 maddədən ibarət olan sənəd plenar iclasda bütün deputatların iştirakı ilə səsə qoyulub və tam razılıqla təsdiqlənib. Sənəddə vurğulanır ki, Fransanın Əlcəzairi 14 iyun 1830-cu ildə başlayan təcavüzdən 5 iyul 1962-ci ilədək koloniyalaşdırması, həmçinin bu tarixdən sonra da davam edən birbaşa və dolayı nəticələr cinayət hesab edilməlidir. Layihənin müəllifləri bildirirlər ki, Fransa dövləti qeyri-insani hərəkətlərə, siyasi, iqtisadi və humanitar xarakterli cinayətlərə, həmçinin beynəlxalq normaların və qaydaların pozulmasına görə məsuliyyət daşıyır. Parlamentin spikeri İbrahim Buğali vurğulayıb ki, bu təşəbbüslər fransız xalqına qarşı yönəlməyib, tarixi ədalətin bərpasını tələb edir.

Qanun layihəsi kolonializmin təxminən 30 növ cinayətini müəyyənləşdirir. Bunlara məhkəməsiz edamlar, yerli əhaliyə qarşı amansız işgəncələr, insanların oğurlanması, zorlamalar, qadağan olunmuş silahlardan istifadə, həmçinin Əlcəzair səhrasında nüvə sınaqlarının keçirilməsi daxildir. Sənəd milli yaddaşın təhqir edilməsi, Fransa müstəmləkəçiliyinin tərənnümü və ya ona bəraət qazandırılmasına görə 5 ildən 10 ilə qədər həbs cəzasını nəzərdə tutur.

Yeni qanunda müstəmləkəçilik dövründə Fransanın mərkəzi hakimiyyətinin Əlcəzairdə törətdiyi insanlıq əleyhinə cinayətlərə görə Yelisey Sarayından üzr istəmək və təzminat ödəmək tələbi yer alır. Qeyd edək ki, Əlcəzair hökuməti indiyədək tarixi ədalətin, beynəlxalq hüququn təmin olunması, oğurlanan və hazırda Fransa muzeylərində saxlanan mədəni sərvətin geri qaytarılması tələbini bir neçə dəfə gündəmə gətirib. Ancaq dünyaya demokratiya, insan haqları dərsi vermək iddialarında bulunan Yelisey Sarayı Əlcəzairin haqlı tələblərinə məhəl qoymayıb. Fransa susqunluğunu nə vaxtadək davam etdirəcək?

***Mübariz ABDULLAYEV***

# Yüz ilə sığmayan gün

## Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanı haqqında

*əvvəli ötən saylarımızda*

Hə, yuxarıda insanın allahlıq iddiası barədə söhbətə qayıdacağımıza söz vermişdik axı: Sabitcanın tapındığı allahlar hara, Yedigeyin tapdığı Allah hara! Allah olmağın, allahlığa can atmağın gerçək üzü, halal üzü bax budur! Onun astar üzünəsə mədam Allahı yamsılayan Şeytanın şəkli düşüb, Sabitcanı heyran qoyan bütlərin surəti həkk olunub - o surət öz əslinə o qədər bənzəyir ki, teztez onu əsliylə qarışıq salırlar.

Boranlı Yedigey Allah haqqında, insan-Allah münasibəti haqqında ən böyük idealist filosofların, peyğəmbərlərin, sufilərin düşüncələri səviyyəsində mühakimə yürüdür. Havayı yerə onu "boz çöllərin knyaz Mışkini" adlandırmırlar. Həqiqətən, əgər bir kişi heç olmasa gəncliyində xəyalən Allah olmağa can atmayıbsa, dünyaya, insanlığa o ucalıqdan, o sevgiylə, mərhəmətlə baxmayıbsa, onda gec-tez o kişi tərkibini, xassəsini itirəcək, kölə, müxənnət, nakişi olacaq, İblis kimi torpağın təkinə çəkilib həyatı yer altından, zirzəmidən güdəcək.

Dahi Kantın mənəvi-əxlaqi imperativi necəydi: "Öz davranışlarında elə qaydaya söykən, elə prinsipi rəhbər tut ki, o qaydanın, prinsipin universal qanuna çevrilməsini arzulaya biləsən". Yəni obyektiv, əxlaqlı insan olmaq üçün öz iradəni xəyalən Tanrı iradəsinə çevirib özünü Allahın yerinə qoymağı bacarmalısan, sözünün, əməlinin qüvvəsi ilahi qanun hökmündə olmalıdır. Başqa sözlə, əgər sənin əməlin obyektiv, universal xarakter daşımırsa, demək, o, xeyir əməl sayıla bilməz.

Bəs Boranlı Yedigey nə deyir: "Onlardan heç biri allahlıq dərəcəsinə yüksələ bilməyəcək, bu halda sən özün də daha mövcud olmayacaqsan".

Həzrəti Kantın ikinci vacib hökmü təxminən bu cür səslənir: "İnsanlara əsla vasitə kimi yox, daim məqsəd kimi yanaş".

Yedigeysə üreyində bəşəriyyətin tək tanrısına, vahid ilahi qanununa belə deyir: "Əgər insan sənin timsalında üreyində özünü hamının dərdinə qalan Allah saymasa, onda, ilahi, sən özün də olmayacaqsan". Başqa sözlə, insan Allahı qorumasa, Allahın var olub insanı qoruyacağına heç bir ümid yoxdur.

Əgər ayrı mühitdə doğulub böyüsəydi, başqa zamanda yaşasaydı, şübhəsiz, Yedigey Cangəldin də balıqçı, əsgər, ya dəmiryol fəhləsi yox, bəşər tarixinin ən parlaq zəkalarından biri İmmanuil Kant kimi azman filosof olardı...

***

Kosmodromun meydançalarında isə iki gündür böyük gərginlik, çaxnaşma var, gecə-gündüz iş gedir. Bütün kosmodrom, qonşuluqdakı xüsusi xidmət binaları, zonalar gecə yüzlərlə projektorun işığı altında gündüz kimi aydınlanır. Onlarla ağır, yüngül texnika, xüsusi maşın, nə qədər alim, mühəndis "Həlqə" əməliyyatını həyata keçirmək üçün tədarük görür. Kosmosda uçan aparatları məhv eləmək məqsədiylə hazırlanmış antipeyklər əmrə müntəzir vəziyyətdə göyə zillənib. Axşam saat səkkizdə raketlər start götürməlidir, Sarı-Özəkdən doqquz antipeyk raketi dəqiqə yarım intervalla bir-birinin ardınca fəzaya qalxmalıdır. Bu raketlər başqa planetlərdən gələn uçuş aparatlarının qarşısını kəsmək üçün Yer kürəsi ətrafında daimi fəaliyyət göstərən həlqə yaratmalıdır:

"Və lap yaxınlıqda, haradasa lap qonşuluqda, kosmodrom zonasında parlaq atəşlə yanan qorxunc alov sütunu püskürüb göyə sancıldı. Yedigey qorxudan geri atıldı, dəvə də bağırıb yerindən sıçradı. İt qorxusundan yiyəsinin ayaqları altına təpildi.

Bu, qoruyucu transkosmik "Həlqə" əməliyyatının birinci döyüş robot-raketi idi. Sarı-Özəkdə axşam saat səkkiz tamamdı. Birincinin dalınca ikinci, onun dalınca da üçüncü raket göyə qalxdı, sonra biri də, biri də... Yerdəki işlərin dəyişməməsi, hər şeyin öz qaydasında qalması üçün bu raketlər uzaq kosmosa qalxıb Yer kürəsi ətrafında daimi fəaliyyətdə olan sərhəd düzəldəcəkdi.

Göy başlarına uçulur, alov və tüstü içində yarılırdı. İnsan, dəvə, bir də it - bu zavallı canlılar dəli kimi qaçır, canlarını qurtarmağa çalışırdılar. Onlar dəhşət içində qaçır, bir-birindən ayrılmağa qorxurdular: nəhəng alov sütunlarının amansızcasına işıqlandırdığı çöllüklə baş götürüb qaçırdılar.

Amma sanki yerlərində qaçırdılar, çünki hər yeni partlayış onları haqlayır, başlarına od, işıq, aləmi sarsıdan gurultu ələyirdi.

İnsan, dəvə, bir də it geri baxmadan qaçırdılar, birdən Yedigeyə elə gəldi ki, manqurt oğlunun oxladığı Nayman-Ananın başından saldığı ağ yaylıqdan əmələ gəlmiş ağ quş haradansa böyürdən çıxdı. Ağ quş bu həşir-qiyamət içində insanla yanaşı uçaraq deyirdi:

- Kimlərdənsən? Adın nədir? Adını yadına sal! Sənin atan Donenbaydır, Donenbay, Donenbay, Donenbaydır, Donenbay...

Yenidən qovuşan zülmət içində bu səs hələ çox eşidildi".

Əsər belə bir qiyamət səhnəsiylə başa çatır...

Ateizmi özünə din-təriqət seçmiş şər imperiyası yer kürəsini mühasirəyə almaqla göylərin yolunu bağlayır, göydən gələn siqnalların səsini batırır.

Ana-Beyit məzarlığı da yer ömrünü başa vurub göyə uçan ruhların kosmodromudur - artıq o da ölülərin üzünə qapanıb.

Yer planetinin ətrafını saran həlqə manqurtun başına keçirilən halqavari dəri sarğıya, zifə bənzəyir - bu yolla Kainatın yaddaşı bəşərin hafizəsindən silinir.

Dəmir yollar boyunca yem dalınca qaçan qarışqa həvəsiylə gecəgündüz şütüyən, relsindən bircə barmaq sapmağa hünəri çatmayan qatarlar - fiziki qanunlar zindanında əsirliyin; fəzanın genişliyinə qırğı kimi şığıyan kosmik gəmilər - metafizik azadlığın rəmzidir.

Utopik Meşəlidöş planeti yüz illərdir ali ruhların arzuladığı cənnətin - ideal cəmiyyətin, müəllifin çox sevdiyi, növbəti romanında obrazını yaradacağı İsa Məsihin vəd verdiyi göylər səltənətinin, Tanrı dərgahının simvoludur.

Yer kürəsinin ətrafına min çəpər çəkilsə belə o dərgahdan gələn siqnalları artıq heç bir bəndə, heç bir bənd-bərə boğa bilməz. Çünki bəşər övladı o mesajları əvvəlindən sonunacan öz ruhunda, heç vaxt silinməyən, silinməsi mümkün olmayan əbədi ruh yaddaşında gəzdirir. Cənnət uzaqlarda deyil - könül bağçasındadır. Qalır o cənnətin çiçəklərini başıbəlalı planetin torpağına əkib suvarmaq. Şəhidlərin qanıyla, yetimlərin göz yaşıyla yox, ana qoynunda, ata boynunda xoşbəxtcəsinə gülümsəyən uşaqların təbəssümüylə suvarmaq. Yer üzünü körpə, məsum tanrıların cənnət yağmurlarında islandığı göy üzünün təcəllasına çevirmək. Uşaqları müqəddəs elan eləyən İsa peyğəmbər Tanrıya duasında necə demişdisə, elə: "Qoy sənin iradən göylərdə olduğu kimi yerdə də bərqərar olsun!"



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Mədəniyyətimizin incisi...

Mədəniyyətimiz zəngin tarixi və müxtəlif incəsənət sahələri ilə dünyada tanınan irsə sahibdir. Bu mədəniyyətin ən mühüm və gözəl incilərindən biri isə şübhəsiz ki, muğamdır. Azərbaycan muğamı yalnız musiqi janrı olmaqla kifayətlənmir, xalqımızın həyat fəlsəfəsini, dərin mənəviyyatını ifadə edən bir vasitədir. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Bu musiqi janrı öz zənginliyi ilə yalnız Azərbaycanda deyil, bütün dünyada sevgi və hörmət qazanıb.

## Muğam xalqımıza xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır



## Müxtəlif hissi və ruh halını əks etdirir...

Azərbaycan muğamı çoxsaylı növlərdən ibarətdir. Bu növlər bir neçə əsas qruplaşdırma ilə fərqlənir: segah, rast, şur, bayati-şiraz və s. Hər bir muğam müəyyən bir hissi və ya ruh halını əks etdirir. Məsələn, rast muğamı daha çox sevinc və xoşbəxtlik hissini ifadə edərkən, segah muğamı daha dərin, kədərli və hüznlü bir mənaya malikdir. Şur isə sevgi və əzabın qarışığıdır, içində həm ağrı, həm də ümid barındırır...

Bu gün Beynəlxalq Muğam Mərkəzinin (BMM) fəaliyyətə başlamasından 17 il ötür. 2008-ci il dekabrın 27-də Bakıda, dənizkənarı Milli parkda qədim musiqi alətimiz olan tarın quruluşunda, modern memarlıq üslubunda tikilmiş Beynəlxalq Muğam Mərkəzinin (BMM) açılışı baş tutub. Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzin açılışını bildirən lenti kəsiblər.

## Milli sərvətimiz və dəyərimiz

Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından BMM-nin müstəsna xidmətləri var. 17 il ərzində görülən işlər, reallaşdırılan layihələrdən mədəniyyətimizin inkişafı və dünyada tanınmasında mühüm əhəmiyyətə malikdir. 17 il öncə mərkəzin açılışında iştirak edən Prezident İlham Əliyev demişdi: "Bu bina Azərbaycan xalqına xidmət edəcək. Bu binada gözəl tədbirlər keçiriləcək, gözəl konsertlər, muğam gecələri baş tutacaq. Muğam bizim milli sərvətimizdir, çox böyük dəyərimizdir. Azərbaycan xalqı əsrlər boyu bu sənəti yaşadıb və bu gün çox vacibdir ki, bu gözəl sənət Azərbaycan xalqının milli dəyəri olan muğam nəsildən-nəslə keçir".

## Muğamımız bütün dünyada sevilir

Azərbaycan muğamının müasir tarixində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Bu fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı ən müxtəlif aspektlərdən hərtərəfli dəstək alaraq, sözün əsl mənasında, intibah dövrünü yaşayır. UNESCO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi muğamın təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməsidir. Bu gün muğamımız bütün dünyada maraqla qəbul olunur və sevilir. Demək olar ki, Heydər Əliyev Fondu yaranandan muğamımızın yeni inkişaf dövrü başlayıb. 2005-ci ildən başlayaraq Heydər Əliyev Fondu tərəfindən muğam televiziya müsabiqələrinə start verilib.



Bunun nəticəsində onlarla gənc muğam ifaçısı yetişib, artıq onlardan bir çoxunun fəxri adları var. Operada, ana televiziyamızda çalışır, ustadlarla bərabər Azərbaycan muğamını bütün dünyada təbliğ edirlər. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Beynəlxalq Muğam Festivalı keçirilir. Bundan başqa, "Qarabağ xanəndələri" muğam toplusu çap olunub. UNESCO xətti ilə hazırlanmış bu alboma belə bir adın seçilməsi Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu bütün dünyaya nümayiş etdirmək istəyindən irəli gəlib. Eyni zamanda, Azərbaycan muğamının Avropada, Qərb ölkələrində təbliği ilə bağlı çox böyük işlər görülüb.

Məlumdur ki, Azərbaycan Ordusu 44 gün ərzində Qarabağda bir tarix yazdı. Qələbəmizdən 6 ay sonra Heydər Əliyev Fondu tərəfindən Şuşada möhtəşəm "Xarıbülbül" festivalı keçirildi. Bununla da dünyaya mesaj verildi ki, torpağın sahibləri qayıdıb, artıq Şuşamızda, Qarabağımızda Azərbaycan muğamı daim səslənəcək!

Sevindirici haldır ki, tez-tez Beynəlxalq Muğam Mərkəzində korifey sənətkarlarımızın yubileyləri keçirilir, gənc ifaçıların konsertlərini dinləyirik. Bizə qürur verən bu işlər muğam irsimizin əbədiyaşarlığını bir daha təsdiqləyir. Beynəlxalq Muğam Mərkəzi istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda bütün azərbaycanlıların həyat hekayətinə çevrilən muğamın təbliğinə, inkişafına öz töhfəsini verməkdədir...

***Yeganə***

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Yığım mövsümü başa çatır



## Regionlarda pambıq tədarükü ümidvericidir

***Yeganə***

Pambıqçılıq uzun illər boyu ölkə iqtisadiyyatında mühüm yer tutub və inkişaf edən sektorlardan biri olub. Xüsusilə, XX əsrin əvvəllərindən etibarən pambıq istehsalı, həm yerli bazarda, həm də xarici ticarətdə ölkənin maliyyə vəziyyətinə əhəmiyyətli təsir göstərib. Pambıq istehsalının səmərəliliyini artırmaq və bu sahədəki mövcud problemləri aradan qaldırmaq üçün dövlət tərəfindən atılan addımlar xüsusilə önəmlidir.

Pambıq istehsalçılarına verilən subsidiyalar bu sahədə istehsalın artırılması, daha yüksək məhsuldarlıq əldə edilməsi və kənd təsərrüfatı sahəsinin ümumi inkişafına dəstək vermək məqsədi daşıyır. Subsidiyalar, həmçinin pambıq istehsalçılarına texnologiya və avadanlıqların yenilənməsi, əkin sahələrinin genişləndirilməsi və keyfiyyətli toxumların istifadəsi üçün stimul yaradır.

**Bu il 360 min tondan çox məhsul yığılıb**

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, bu günə qədər Azərbaycanda pambıq əkini aparılmış 100 468,1 hektar sahədən 360 min tondan artıq xam pambıq tədarük olunub. Orta məhsuldarlıq hər hektarda 35,84 sentner təşkil edib. Bu, pambıqçılıqda müstəqillik dövrünün ən yüksək orta məhsuldarlıq göstəricisidir.

2025-ci təsərrüfat ilində 16 rayonda pambıq əkilib. Əkinlərin 86 faizə yaxını pambıqçılıq üzrə ixtisaslaşmış 9 rayonun (Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar, İmişli, Neftçala, Saatlı, Sabirabad, Salyan) payına düşür. Bu rayonlarda pambıq əkinlərinin ümumi ərazisi 86 min hektara yaxındır. Bu il ən çox pambıq Saatlı (12 634,1 ha), Ağcabədi (11 821,7 ha) və Sabirabad (11 086,2 ha) rayonlarında əkilib. 2025-ci təsərrüfat ilində pambıq üzrə ən yüksək məhsuldarlıq Beyləqan rayonunda qeydə alınıb. Bu rayonda orta məhsuldarlıq göstəricisi 41,88 sentner/ha təşkil edib. Rayon üzrə əkin aparılmış 8 898,3 ha sahədən 37 264,1 ton məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib.

Orta məhsuldarlıq göstəricisinə görə növbəti yerləri Neftçala (39,79 sentner/ha), Biləsuvar (39,90 sentner/ha), Tərtər (37,61 sentner/ha), Bərdə (37,31 sentner/ha) və Saatlı (36,06 sentner/ha) rayonları tutur. Bu rayonlarda pambıq üzrə orta məhsuldarlıq göstəricisi ümumrespublika göstəricisindən yüksəkdir.

**Stimullaşdırıcı tədbirlər məhsuldarlığı artırır**

İstehsalın və məhsuldarlığın artmasına dövlətin stimullaşdırıcı tədbirlərlə yanaşı, fermerlərin zəruri əkin ehtiyatları ilə təmin edilməsi müsbət təsir etməkdədir. Belə ki, pambıq əkinləri torpaq mülkiyyətçisi olan fermerlərlə pambıq tədarükü və emalı şirkətləri arasında bağlanan müqavilələr əsasında şirkət toxum, gübrə, pestisid və herbisidləri çatdırır, eləcə də torpağın əkinə hazırlanması, aqrotexniki qulluğun göstərilməsi və məhsulun yığılması ilə bağlı texnika təchizatını həyata keçirir, nəticədə bu əkinlə məşğul olanlarda marağı artırır. Həmçinin, bitkinin vegetasiya dövründə fermerə zəruri məsləhətlər vermək üçün aqronom ayırır, əkin xərclərini qarşılamaq üçün avans verir. Bu amil də pambıqçılıqda motivasiya üçün əhəmiyyətli rol oynayır. Bütün bunların müqabilində fermer daha yaxşı məhsul yetişdirməyə çalışır, müqavilədə müəyyən olunmuş öhdəliyi intizamla yerinə yetirir.

Yeri gəlmişkən, pambıqçılıqda son illərdə müasir aqrotexniki üsullar, yeni texnoloji metodlara da üstünlük verilir. Məsələn, "Contract farming" formatında müqaviləli əkin fermerlərin əkin xərclərini və məhsul satışı problemini aradan qaldıran üsul kimi Azərbaycanda uzun illərdir tətbiq olunur və özünü uğurla doğruldur.

**Fermerlərə 195 manat subsidiya ödəniləcək**

Nazirlik hazırda pambıq əkən fermerlərə təhvil verdikləri məhsula görə subsidiyaların ödənilməsinə başlandığını bildirir. Subsidiya ödənişləri maliyyə qrafikinə uyğun olaraq dekabrın 30-da başa çatacaq. Xatırladaq ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2025-ci təsərrüfat ilində müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrdə yetişdirilmiş məhsulu pambıq emalı və tədarükü şirkətlərinə təhvil verən fermerlər hər tona görə dövlətdən 210 manat subsidiya alacaqlar. Ənənəvi üsulla suvarılan sahələrdə yetişdirilib tədarük məntəqələrinə təhvil verilən pambığın hər tonuna görə isə fermerlərə 195 manat subsidiya ödəniləcək.

Pambığa görə məhsul subsidiyası 15 dekabra qədər pambığın təhvil verilməsinə dair qəbzləri Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil edən fermerlərə verilir. Gecikən fermerlərə isə subsidiyaların ödənişi 2026-cı maliyyə ilinin 2-ci rübündə həyata keçiriləcək.

**2026-cı ildə subsidiyalar 200-215 manat olacaq**

Aqrar Subsidiya Şurası növbəti təsərrüfat ili üçün pambıq istehsalına görə məhsul subsidiyasının artırılması barədə qərar qəbul edib. 2026-cı ildə fermerlərə müasir suvarma sistemləri ilə təmin olunmuş əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə 215 manat, müasir suvarma sistemləri ilə təmin olunmamış əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə isə 200 manat subsidiya ödənilməsi nəzərdə tutulur.

Gələn il pambıq üzrə məhsul əmsalı Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Biləsuvar, Goranboy, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Tərtər, Yevlax, Zərdab rayonlarına, habelə Cəlilabad rayonunun Günəşli və Təzəkənd kəndlərinə və Ucar rayonunun Xələc kəndinə şamil ediləcək. Digər rayonlarda əkiləcək pambığa görə isə məhsul subsidiyası ödənilməyəcək.

---

# Azercell "Gələcək sizinlə başlayır! - öyrən, böyü, paylaş" sosial təşəbbüsünə start verib




Lider mobil operator Azercell cəmiyyətin ən həssas təbəqələrindən olan uşaqların inkişafına töhfə vermək məqsədilə "Gələcək sizinlə başlayır! - öyrən, böyü, paylaş" adlı yeni sosial təşəbbüsə başlayıb.

Proqramın əsas məqsədi xüsusi qayğı və dəstək mühitində böyüyən uşaqların sosial bacarıqlarının inkişafına dəstək göstərmək və onların cəmiyyətə daha asan inteqrasiyasına şərait yaratmaqdır.

Layihənin icrasına Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyində olan 1 saylı Uşaq Evi sosial xidmət müəssisəsində başlanılıb. Proqram çərçivəsində artıq iki təlim və maarifləndirici sessiya təşkil olunub. Bu sessiyalar uşaqların hərtərəfli inkişafını hədəfləyərək sosial bacarıqların formalaşdırılması, özünüifadə, yaradıcı düşüncənin təşviqi, həyat tərzi vərdişlərinin aşılanması, həmçinin rəqəmsal savadlılıq və təhlükəsizlik mövzularını əhatə edir.

Təlimlər Çikaqo Universitetinin layihə koordinatoru, gənclərin inkişafı üzrə təlimçi Gülsüm Məmmədova, eləcə də Azercell-in müvafiq sahə üzrə ekspertləri tərəfindən həyata keçirilib.

Qeyd edək ki, "Gələcək sizinlə başlayır! - öyrən, böyü, paylaş" sosial təşəbbüsünün mərhələli şəkildə davam etdirilməsi nəzərdə tutulur.

# Azercell "Kinon" tətbiqinin funksionallığını genişləndirir

Azercell rəqəmsal əyləncə sahəsində istifadəçi təcrübəsini daha da zənginləşdirərək "Kinon" tətbiqinin "Android" əməliyyat sistemi üçün tam yenilənmiş, daha müştəriyönümlü həllini təqdim edib. Yenilənmə çərçivəsində tətbiqin funksionallığı əhəmiyyətli dərəcədə genişləndirilib və istifadəçi ehtiyacları nəzərə alınaraq daha rahat və çevik istifadə imkanları yaradılıb.

İndi təkmilləşdirilmiş "Kinon" tətbiqində məzmun daha sürətli yüklənir, videolar daha stabil və axıcı şəkildə izlənilir. Yenilənmiş interfeys müasir dizayn prinsiplərinə uyğun olaraq hazırlanıb, yaddaş və batareya optimizasiyası isə mobil cihazların resurslarından daha səmərəli istifadəni təmin edir.

"Kinon" tətbiqi istifadəçilərə eyni anda 260-dan çox yerli və xarici TV kanalını izləmək imkanı yaradır. Bundan əlavə, "Premier", "Viju" və "Wink" kimi beynəlxalq onlayn kinoteatrlar da bir platformada birləşdirilib.




Yenilənmiş "Kinon" tətbiqi artıq "Android" üçün "Google Play" mağazasında əlçatandır: https://onelink.to/3gnet5

Ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/digital-solutions/kinon-plus.html


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2620
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova